www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 may 2025-ci il Cümə № 75 (8685) Qiymıəti 60 qəpik

Xəbər

**Kommunal ödənişlərlə bağlı müəmmalı qərar**

yazısı səh.12-də

Gündəm

**Bakıda "atəşkəs kimi" anlaşma**



İran mediası imzalanan sənədə əməl edəcəkmi?

yazısı səh.6-da

**"Milyonçular məhəlləsində" 5 milyona satılan villa kimindir?**

yazısı səh.3-də

**Bu gün türk dövlətləri Kıbrısda toplanacaq**

yazısı səh.4-də

**Hökumət dördayaqlı təhlükəyə qarşı**

yazısı səh.3-də

**Rəsulzadənin bayram, Elçibəyin "qara tarix" dediyi gün**

yazısı səh.6-da

**Moldova "Rusiyadan qurtuluşu" bizdən öyrənir**

yazısı səh.7-də

**Ölkədə maaşlarla bağlı ciddi yenilik**

yazısı səh.12-də

**Namazın ana dilində qılınması yenidən gündəmdə**

yazısı səh.13-də

**Uşaqsız və subay Papa - adı mayın 7-də bilinəcək**

yazısı səh.13-də

**Ölkədə ən çox tələb olunan beş peşə**

yazısı səh.14-də

**Yeni hərbi prokuror kim olacaq?**

yazısı səh.2-də

**Müəllimlərə 1 il, həkimlərə cəmi 6 ay?**

yazısı səh.14-də

# ABŞ KONQRESİNDƏ ANTİ-AZƏRBAYCAN DİNLƏMƏLƏRİ

Vaşinqtonda Azərbaycanla əməkdaşlıq tendensiyasının güclənməsi Kris Smit və onun kimi ermənipərəstləri narahat edib - Vardanyanın pulları konqresmenlərin iştahasını artırıb



yazısı səh.8-də

# Rusiya "5-ci kolon"u yenidən dirçəldir - Azərbaycana təhlükə

Ekspertə görə, yaxın dövrdə Moskvanın Cənubi Qafqazda açıq və təxribatçı fəaliyyəti özünü hiss etdirəcək, Bakı da önləyici tədbirlərə indidən başlamalıdır...

yazısı səh.9-da



**Kreml Paşinyanı növbədənkənar seçkiyə məcbur edir**

yazısı səh.5-də



**Xəzər sahilində sensasion görüş iddiası - 10 mayda nə olacaq?**

yazısı səh.4-də



Rəşad Əzizov

**İki xalq artisti ARKA-ya təyin olunan direktoru tanımadı**

yazısı səh.11-də



## Şuşa və Xocalıda kütləvi məzarlıqlar tapıldı

**Əsgəran-Xocalı yolunda yeddi itkin mülki şəxsə aid meyit qalıqları tapılıb. Əsir və itkin düşmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası işçi qrupu rəhbərinin müavini Eldar Səmədov deyib ki, aprel ayında aparılan qazıntılar zamanı iki kütləvi məzarlıq aşkarlanıb: "Kütləvi məzarlıqlardan biri Şuşa şəhərinin yaxınlığında, Şuşa-Xankəndi və Şuşa-Laçın yolunun birləşməsində aşkar edilmişdi. Bu qalıqların ən azı 5 nəfərə aid olduğu ehtimal edilir. Yol tikintisi aparıldığı üçün qalıqlar oradan götürülüb. Əsgəran-Xocalı yolunun üstündə aşkarlanan bu məzarlıqda ən azı 7 itkin şəhidə aid meyit qalıqları aşkarlanıb. Mütəxəssislərin rəyinə görə, qalıqlar mülki şəxslərə aiddir. Onlar qeyri-ənənəvi yolla dəfn olunublar".**

## Qarabağda itkin düşənlərin rəsmi sayı

**"Bu günə olan məlumata görə, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində 3990 itkin düşmüş şəxs qeydiyyata alınıb".**

Bunu Əsir və itkin düşmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası işçi qrupu rəhbərinin müavini Eldar Səmədov deyib. O bildirib ki, son illərdə aparılan axtarış-qazıntı və eyniləşdirmə prosesləri nəticəsində 170 Azərbaycan vətəndaşının taleyinə aydınlıq gətirilib: "Bu gün burada Ermənistanın törətdiyi yeni cinayət faktı ilə üz-üzəyik. Uzun illər Ermənistan tərəfi Xocalı soyqırımı ilə bağlı özünəməxsus yanaşma nümayiş etdirib. Onlar yalandan deyirdilər ki, mülki əhali Xocalını tərk edərkən dəhliz açılıb. Bu gün burada tapılan kütləvi məzarlıq göstərir ki, heç bir humanitar dəhlizdən söz gedə bilməz".

## Neftimizin qiyməti ilə bağlı proqnoz

**Beynəlxalq Valyuta Fondu (IMF) "Azeri Light" markalı Azərbaycan neftinin qiyməti ilə bağlı proqnozunu açıqlayıb.**

"APA-Economics" xəbər verir ki, İMF Azərbaycan neftinin orta illik qiymətinin 2025-ci ildə 78,6 dollar, 2026-cı ildə 73,5 dollar səviyyəsində formalaşacağını proqnozlaşdırıb.

Fond hesab edir ki, "Azeri Light"ın illik orta qiyməti 2027-ci ildə 71,6 dollar, 2028-ci ildə 70,6 dollar, 2029-cu ildə 72 dollar, 2030-cu ildə isə 73,4 dollar təşkil edəcək.

Qeyd edək ki, IMF Azərbaycanın nefti üçün qiymət proqnozunu Dünya İqtisadi Proqnozlaşdırması (World Economic Outlook - WEO) hesabatındakı Brent qiymətlərinə 2-3 dollar əlavə edərək hesablayıb. Başqa sözlə, Azərbaycan neftinin orta qiyməti yeddi il ərzində 70 dollardan aşağı olmayacaq.

Xatırladaq ki, 2025-ci ilin dövlət büdcəsində Azərbaycan neftinin qiyməti 70 dollar müəyyən edilib. Büdcədə "Azeri Light"ın qiyməti 2026-cı il üzrə isə 65 dollar proqnozlaşdırılıb.




## Azad edilmiş ərazilərdə daha 381 mina aşkarlandı

**İşğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən aprel ayında icra olunan əməliyyatlar barədə məlumat açıqlanıb.**

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyindən (ANAMA) verilən məlumata görə, Tərtər, Ağdam, Ağdərə, Laçın, Füzuli, Şuşa, Xocalı, Xankəndi, Kəlbəcər, Xocavənd, Cəbrayıl, Qubadlı və Zəngilanda 302 piyada əleyhinə mina, 79 tank əleyhinə mina, 3047 Partlamamış Hərbi Sursat (PHS) aşkarlanıb.

Bildirilib ki, 6365.7 hektar ərazi mina və PHS-lərdən təmizlənib.

# Yeni hərbi prokuror kim olacaq?



**Aprelin 8-də səlahiyyət müddəti başa çatan Xanlar Vəliyev baş prokurorun müavini - Azərbaycanın hərbi prokuroru vəzifəsindən azad edilərək, təqaüdə göndərilib.**

Azərbaycanın hərbi prokuroru vəzifəsinə isə hələ ki yeni təyinat olmayıb.

Modern.az-ın əldə etdiyi məlumata görə, yaxın günlərdə hərbi prokuror vəzifəsinə təyinat həyata keçiriləcək.

Məlumatda qeyd edilir ki, mayın 1-də Kamran Əliyevin baş prokuror kimi səlahiyyət müddətinin daha 5 il artırılmasının ardınca hərbi prokuror vəzifəsinə təyinat məsələsi də həllini tapacaq.

Məsələ burasındadır ki, yeni hərbi prokurorun təqdimatını baş prokuror etməlidir. Xanlar Vəliyevin təqaüdə göndərilməsi baş prokuror Kamran Əliyevin 5 illik səlahiyyət müddətinin sonuna təsadüf etdiyindən yeni hərbi prokurorun təyinatı da gecikirdi.

Hazırda hərbi prokurorun 3 müavini fəaliyyət göstərsə də, onlardan heç biri hərbi prokurorun səlahiyyətlərini icra etmir. Bu barədə Hərbi Prokurorluğun mətbuat xidmətindən bildirilib. Hərbi prokurorun müavinləri bunlardır: ədliyyə general-mayoru Şəfahət İmranov, ədliyyə general-mayoru Fuad Məmmədov və ədliyyə polkovniki Mehdi Hüseynzadə. Onlar hazırda yalnız müavin vəzifəsinin icrasını həyata keçirirlər.



Azər Məmmədrəhimov

## Naxçıvanda yeni nazir əvəzi təyinatı

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin sərəncamına əsasən Azər Məmmədrəhimov MR rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini vəzifəsinə təyin edilib.**

A.Məmmədrəhimova nazir vəzifəsinin müvəqqəti icrası həvalə edilib.

Azər Şahverdi oğlu Məmmədrəhimov Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Aparatında məsləhətçi, aparıcı məsləhətçi, böyük məsləhətçi və baş məsləhətçi vəzifələrində çalışıb. 2024-cü ilin avqust ayından cari tarixə qədər isə "Naxçıvanpoçt" publik hüquqi şəxsin direktoru vəzifəsində işləyib.

Qeyd edək ki, bu təyinatadək Naxçıvan Muxtar Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri vəzifələrini Rahid Ələkbərli icra edib.



Ədalət Abbasov

## PA-nın sektor müdiri işdən çıxarıldı

**Azərbaycan Prezidentinin Mətbuat xidmətinin çəkiliş sektorunun müdiri Ədalət Abbasov vəzifəsindən azad olunub. Teleqraf xəbər verir ki, sözügedən xidmətin bir neçə əməkdaşı da işdən çıxarılıb.**

Qeyd edək ki, Ə.Abbasov 1993-cü ildən Prezidentin Mətbuat xidmətinin çəkiliş qrupunda çalışırdı.

Onun həmçinin MUZ TV-nin təsisçisi və kuratoru olduğu bildirilir.

## Qukasyanın Şuşa ilə bağlı videomaterialları nümayiş olundu



**Bakı Hərbi Məhkəməsində davam etdirilən məhkəmə prosesində təqsirləndirilən şəxs Arkadi Qukasyanın Şuşa işğal edilən dərhal sonra orada olmasını əks etdirən videomateriallar göstərilib.**

Videomaterialın tədqiqi zamanı dövlət ittihamını müdafiə edən prokurorlar görüntülərin Şuşanın işğalından dərhal sonra çəkildiyini bildirib və A.Qukasyana suallar ünvanlayıb.

Təqsirləndirilən şəxs suallara cavabında videokadrlarda özü ilə birlikdə Şuşada olan şəxslərin adlarını sadalayıb: "Ortada mülki geyimdə olan sürücüdür. Mənim arxamda kostyumda olan Oleq İsayandır. Arxa planda Armen İsaqulovu tanıdım. İkinci Zori Balayan. Mülki geyimdə olan Vasili Atacanyandır. İndi sürücünün yerinə Yepiskop Parqev yaxınlaşdı... Digərlərini tanımıram. Görünür ki, sadəcə, hərbçilərdir".

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.



## 6 məktəbdə birinci sinfə qəbul imtahanı ləğv olunur

**Daha 6 məktəbdə I sinfə qəbul üzrə müsabiqə mərhələsi ləğv edilə bilər. Bu barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsindən məlumat verilib. Bildirilib ki, İ.Əfəndiyev adına Elitar gimnaziya, Bakı Slavyan Universiteti nəzdində məktəb-lisey kompleksi, T.Həsənov adına 23 nömrəli tam orta məktəb, 132-134 nömrəli Təhsil Kompleksi, T.İsmayılov adına 6 nömrəli məktəb-lisey, "Zəngi" liseyində I sinfə qəbul üzrə müsabiqənin keçirilib-keçirilməməsi müraciət sayına əsasən qərarlaşdırılacaq.**

YENİ MÜSAVAT
N 75 (8685) 2 may 2025

# Hökumət dördayaqlı təhlükəyə qarşı

## Kinoloq: "Qısırlaşdırma aparılmasa, bu tədbirlərin effekti olmayacaq "

**Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Sahibsiz Heyvanlara Qayğı Mərkəzi" publik hüquqi şəxs yaradılıb. Bununla bağlı baş nazir Əli Əsədov qərar imzalayıb. "Sahibsiz Heyvanlara Qayğı Mərkəzi" publik hüquqi şəxsin Nizamnaməsi və strukturu təsdiq edilib.**



Mərkəzin nizamnamə fondu 2 milyon manat təşkil edir və Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil-Kommunal Təsərrüfatı Departamentinin Sanitariya və Texniki Təmizlik İdarəsinin balansında olan əsas vəsaitlər hesabına formalaşır.

Nazirlər Kabinetinə mərkəzin nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi, strukturunun təsdiq edilməsi, idarəetmə orqanlarının yaradılması, idarə, filial və nümayəndəliklərinin yaradılmasına razılıq verilməsi, Azərbaycan Prezidenti ilə razılaşdırmaqla, mərkəzin ləğvi və yenidən təşkili həvalə edilir.

Mərkəzin dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Bakı Şəhər İcra Hakimiyyətinin aidiyyəti qurumunun balansında olan dövlət əmlakının mərkəzin balansına verilməsi üçün zəruri tədbirlər görməli, Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, dövlət büdcəsindən dövlət sifarişi əsasında ayrılacaq məqsədli vəsaitin ödənilməsi üçün mərkəzlə müqavilə bağlanılmasını təmin etməlidir.

Son aylar sahibsiz itlərlə bağlı hadisələr artıb. Bakının müxtəlif qəsəbə və kəndlərində itlər azyaşlılara və məktəblilərə hücum edərək onlara ağır xəsarətlər yetiriblər. Milli Məclisin son iclaslarından birində **Gəncənin deputatı Naqif Həmzəyev** təmsil etdiyi şəhərdə 1200-dən çox it dişləmə hadisəsi olduğunu demişdi. Deputat bildirib ki, bu rəqəm sahibsiz heyvanların şəhər və rayonlarımızda yaratdığı təhlükəni açıq-aydın göstərir: "Sahibsiz heyvanların peyvənd edilməməsi və onlara tibbi yardımın göstərilməməsi nəticəsində quduzluq və digər xəstəliklərin yayılması riski artmaqdadır.

Problemi təsvir etmək üçün qeyd edim ki, şəhər və rayonlarımızda sahibsiz heyvanlar üçün sığınacaqlar mövcud deyil. Heyvanlar mütəmadi olaraq peyvənd edilmir və tibbi yardım almır. Şəhər və rayonların mərkəzi parklarında, küçələrində belə sahibsiz heyvanların sakinlər üçün ciddi problem yaratdığına şəxsən şahidlik etmişəm. Bu da sakinlərimizin sağlamlığı üçün ciddi təhlükə yaradır. Sahibsiz heyvanların təhlükəsizliyini təmin etmək və onların vəziyyətini yaxşılaşdırmaq üçün müvafiq qanunvericilikdəki boşluqlar aradan qaldırılmalıdır və ya sahibsiz heyvanlar haqqında yeni qanun hazırlanmalıdır".

**Deputat qeyd edib ki, sahibsiz heyvanlar üçün müvəqqəti sığınacaqların yaradılması, onların təhlükəsiz şəkildə saxlanılması üçün vacib bir addımdır:** "Bu sığınacaqlar, heyvanların tibbi müayinəsi və müalicəsi üçün də istifadə oluna bilər. Sahibsiz heyvanların mütəmadi olaraq peyvənd edilməsi, xüsusilə quduzluq əleyhinə peyvəndlərin icrası bu cür xəstəliklərin yayılmasının qarşısını ala bilər. Sahibsiz heyvanların problemləri ilə hansı qurumların məşğul olacağı dəqiqləşdirilməlidir və onların fəaliyyətləri əlaqələndirilməlidir".

Belə görünür ki, hökumət bu problemlə bağlı ciddi hərəkətə keçib. Bəs bu, küçələrdəki ölümcül təhlükəni önləmək üçün kifayətdirmi?

**Hərbi kinoloq Nicat Əhmədli mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb**: "Hazırda cəmiyyəti narahat edən əsas məsələlərdən biri itlərin hücumudur. Əslində bu hücumlarda insanların da rolu var, itlərin də rolu var. Amma biz bunu deməkdən yorulduq. Yenə də bir qisim şəxs itlərdə görür günahı. Amma hər halda, günah insanlardadır, çünki şüurlu məxluq olan insandır, it deyil. İt instinktlə hərəkət edir, heyvandır, şüuru yoxdur. Heyvanlara Qayğı Mərkəzi, yəni sahibsiz heyvanlara qayğı mərkəzi. Burada bir çox heyvanlar - pişiklər ola bilər, itlər ola bilər, başqa heyvanlar ola bilər, quşlar ola bilər. Amma bu, məsələnin çıxış yolu deyil. İki milyon manat dövlət büdcəsindən vəsait ayrılıb. Ancaq bu iki milyon manat hansı istiqamətdə xərclənəcək? Bu iki milyon manat heyvanların sağlamlığınamı xərclənəcək? Mən əminəm ki, qısırlaşdırma ilə bağlı tədbirlər çox az görüləcək. Məsələnin həlli üçün dövlət büdcəsindən pul ayrılmalıdır, onsuz da ayrılır. Müvafiq qurumlar, bələdiyyələr tərəfindən avtomobillər ayrılmalıdır. Həmin avtomobillər küçə itlərini götürməlidirlər və onların hamısı qısırlaşdırılmalıdır. Yəni dövlət hər qısırlaşdırılan it üçün klinikalara pul ayırmalıdır. Əməliyyatlar olunmalıdır və bu mexanizmə nəzarət olmalıdır ki, həqiqətən də itlər qısırlaşdırılır. İtlərin hamısı qısırlaşdırılandan sonra sadəcə vaxt vermək lazımdır. 3 il ərzində pik səviyyədə itlərin sayı azalacaq".

**Ekspert əlavə edib ki, bir çox ölkələrdə təcrübə uğurla tətbiq olunub:** "Misal üçün, bu gün Amerikada kiçik itlər yoxdur, yəni söhbət sahibsiz itlərdən gedir. Avropanın bir çox ölkələrində də yoxdur. Hər kəs rahat şəkildə gəzdirə bilir. Bu istiqamətdə işlər aparılmalıdır. Yoxsa nə qədər vəsait ayrılsa da, mərkəz yaradılsa da, effektiv olmayacaq. Bu mərkəz neçə iti qəbul edə biləcək? Mən özüm Sumqayıt şəhərində yaşayıram, hələ Bakını demirəm. Sumqayıtda olan itlərin 50 faizini bu mərkəzə yığa bilərik? Təbii ki, yox.

Yəni bu mərkəzdə maksimum olsun 300-500 it, bundan artıq mümkün deyil, çünki bunların yemlənməsi, dərmanları və sairə filan. Ancaq və ancaq büdcədən pullar ayrılmalıdır - baytarlara, xəstəxanalara, özəl klinikalara və orada baytarlar tərəfindən küçə itləri qısırlaşdırılmalıdır, peyvəndləri vurulmalıdır, nişanlar vurulmalıdır ki, bəli, bu it qısırlaşdırılıb. Qısırlaşdırma olarsa, ilk ildən hətta 15-20%-lik nəticə görəcəyik. Rahat 15-20% minimum nəticələrə görə görəcəksiniz ki, artıq say azalır. İtlər birdən 7-12 balalaya bilir. Bu qədər itin qısırlaşdırma ilə artmasının qarşısı yalnız alınır. Ancaq yolu budur. Yoxsa nə qədər pullar ayrılsa da, nə qədər mərkəz açılsa da, sığınacaq tikilsə də, bunların hamısının effektiv olacağına inanmıram".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# "Milyonçular məhəlləsində" 5 milyona satılan villa kimindir?



**Nərimanov rayonunda, Məmməd Araz (keçmiş Teymur Əliyev) və Həsən Əliyev küçələrinin kəsişməsində yerləşən dəbdəbəli villa 5 000 000 manata satışa çıxarılıb. Bura "milyonçular məhəlləsi" kimi də tanınır.**

Teleqraf xəbər verir ki, ümumi sahəsi 950 kvadratmetr olan 11 otaqlı bu həyət evi 2.2 sot torpaq sahəsində inşa olunub və 4 mərtəbədən ibarətdir. Evin bir kvadratmetrinə düşən dəyəri isə 5 263 manat təşkil edir.

Klassik üslubda yüksək səviyyədə təmir edilən villa tam təchiz olunmuş şəkildə - bahalı mebellərlə birlikdə satılır. Tikinti zamanı yalnız keyfiyyətli və bahalı materiallardan istifadə olunub.

Evin planlaşdırılması və dizaynı fərdi arxitektur layihə əsasında həyata keçirilib, interyerin 80 faizi isə peşəkar rəssamların əl işidir.

Əlavə olaraq, villada 8 yataq otağı, 3 geniş zal, mansard (evin damının içində yerləşən çardağabənzər otaq), hər mərtəbədə sanitar qovşaq, sauna və qapalı hovuz mövcuddur. Bundan əlavə, kombi sistemi, generator, qaraj, manqal və təndir də evin imkanlarına daxildir.

Villanın sahibi haqda isə heç bir məlumat yoxdur.

# İntiqam Babayev bekar qalmadı - yeni vəzifəsi



**Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinə yeni müdir təyin edilib.**

Bununla bağlı mədəniyyət naziri Adil Kərimli tərəfindən müvafiq əmr imzalanıb.

Əmrə əsasən, İntiqam Babayev bu vəzifəyə təyinat alıb.

İ.Babayev 1994-1998-ci illərdə Bakı Gənclər Klubunun, 1995-1998-ci illərdə Gənclər Təşkilatları Milli Şurasının sədri olub. 1998-1999-cu illərdə Gənclər və İdman Nazirliyində Gənclər təşkilatları ilə iş şöbəsinin müdiri, 1999-2000-ci illərdə Bakı Şəhər İcra Hakimiyyətinin Siyasi partiyalar və ictimai təşkilatlarla iş şöbəsinin müdiri vəzifələrində çalışıb.

O, 2000-2021-ci illərdə gənclər və idman nazirinin müavini olub. 2022-2023-cü illərdə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Aparatının rəhbəri olub və aparat rəhbərinin vəzifələrini müvəqqəti icra edib.

YENİ MÜSAVAT
N 75 (8685) 2 may 2025




# Bu gün türk dövlətləri Kıbrısda toplanacaq

## Əsas mövzu Qazaxıstan, Özbəkistan və Türkmənistanın Cənubi Kiprdə diplomatik nümayəndəliklərlə bağlı qərarı olacaq

**Şimali Kipr Türk Cümhuriyyətinin Lefkoşa şəhərində Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının 17-ci iclası keçiriləcək. Bu barədə TDT məlumat yayıb. Qeyd olunub ki, iclasın əsas mövzusu Qazaxıstan, Özbəkistan və Türkmənistanın Cənubi Kiprdə diplomatik nümayəndəliklərlə bağlı qərarı olacaq.**

Maraqlıdır ki, bu qərardan sonra yunan Kiprində anti-Türkiyə aksiyaları başlayıb. Rum Ortodoks Kilsəsinin arxiyepiskopu Georgios türkləri Kiprdən qovmağa çağırıb: "Yunanıstan, Cənubi Kipr Rum İdarəsi və bütün Ellinizm türkləri qovmaq və vətəni xilas etmək üçün birlikdə mübarizə aparmalıdır". Türkiyə Şimali Kipr Türk Cümhuriyyətinin tanınması üçün səylərini artırmağa davam edəcək. Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan yerli jurnalistlərə müsahibəsində deyib.

O qeyd edib ki, Türkiyə ŞKTC-ni heç vaxt tək və kimsəsiz qoymayacaq. "Türkiyə Cümhuriyyəti olaraq Kipr türklərinin hüquq və mənafelərini hər platformada müdafiə etmək bizim tarixi və insani məsuliyyətimizdir. Biz bu məsuliyyəti yerinə yetirməkdə son dərəcə qərarlıyıq. Türk Dünyasının bundan sonra da qardaşlarının (ŞKTC-nin) yanında olacağına inanırıq", - o vurğulayıb.

**Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım** TDT üzvləri Qazaxıstan, Qırğızıstan, Özbəkistan və müşahidəçi üzv Türkmənistanın Cənubi Kiprdə səfirlik açmaq qərarına münasibət bildirib. Teleqraf xəbər verir ki, bu barədə Türkiyənin "Nefes" qəzeti məlumat yayıb.

"Bu ölkələr (90-cı illərdə) müstəqillik əldə etdikləri dövrdə Cənubi Kipri tanıyıblar. Hazırda görünən odur ki, əvvəllər digər paytaxtlardan apardıqları diplomatik və konsulluq işlərini Cənubi Kiprdə açacaqları nümayəndəliklərdən birbaşa idarə edəcəklər. Həmin dövlətlər Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Türk Dövlətləri Təşkilatında müşahidəçi üzv statusunu da qəbul ediblər. Bu, çox mühüm bir addımdır və bu dövlətlərin Türkiyə və ŞKTC ilə əlaqələrə verdiyi önəmin göstəricisidir", - qəzet şura rəhbərindən sitat gətirir.

Binəli Yıldırım daha bir mühüm hadisəyə də diqqət çəkib: "TDT-nin Ağsaqallar Şurası mayın 2-də ŞKTC-də toplanacaq".

Yıldırım ŞKTC-yə Macarıstandan başqa bütün üzv ölkələrin nümayəndələrinin gələcəyini təsdiqləyib.

Xatırladaq ki, aprel ayında Qazaxıstan, Qırğızıstan Tacikistan, Türkmənistan və Özbəkistanla Avropa İttifaqı arasında imzalanmış 12 milyard avroluq müqavilədən sonra bu ölkələr Cənubi Kipri "adada yeganə qanuni dövlət" kimi tanıyıblar. Həmçinin bu çərçivədə Cənubi Kiprdə səfirlik açmaq qərarı verilib. Saziş Türkiyədə Şimali Kipr Türk Cümhuriyyətinin beynəlxalq səviyyədə tanıdılması səylərinə zərbə kimi də şərh edilib.

**İran Prezidenti Məsud Pezeşkianın Bakıya səfərindən sonra İsrailin baş naziri Benyamin Netanyahunun da mayın 7-də Azərbaycana gəlməsi gözlənilir. "Yeni Müsavat" İsrail mediasına istinadla xəbər verir ki, Netanyahunun Azərbaycana səfərinin 5 gün davam edəcəyi deyilir.**

# Xəzər sahilində sensasion görüş iddiası - 10 mayda nə olacaq?

## Netanyahunun beş gün davam edəcəyi deyilən Bakı səfəri ABŞ-İran nüvə diplomatiyası, eləcə də Əliyev, Ərdoğan və Suriyanın keçid rəhbərliyi arasında pərdəarxası təmaslar fonunda baş tutur; Azərbaycan yeni yaranan regional təhlükəsizlik arxitekturasının mərkəzində...

Yeni səferin mayın 11-dək davam edəcəyi bildirilir. Eyni zamanda mayın 10-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfər edəcəyi xəbər verilir. Maraqlıdır, eyni vaxtda həm Netanyahu, həm də Ərdoğan Bakıda olacaqlar. Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov Bakupost.az-a açıqlamasında liderlərin paytaxtımızda bir araya gəlməsini mümkün sayıb: "Ərdoğan və Netanyahunun görüşü istisna olunmur. Güman ki, geniş müzakirələr olacaq. İsrail üçün Türkiyənin mövqeyi çox vacibdir. Ələlxüsus ona görə ki, artıq İsrail və İran arasında ciddi toqquşma ehtimalı çox yüksəkdir. Bu vəziyyətdə Türkiyənin mövqeyi olduqca vacibdir. Ona görə İsrail istər-istəməz Türkiyə ilə bu və ya digər şəkildə məsələləri həll etməlidir".

**Bir neçə mənbə həmçinin Bakıda qapalı İsrail-İran münasibətlərinin müzakirəsini də istisna etmir. İsraili iranşünas və jurnalist Mixail Borodkin Pressklub.az-a açıqlamasında bu ehtimal üçün heç bir əsas görmür:** "Əlbəttə, İsrail münasibətləri normallaşdırmaqdan məmnun olardı. Çünki bu qarşıdurmanı 1979-cu il inqilabından sonra hakimiyyətə gələn yeni Tehran rejiminin özü, heç bir əsas olmadan, tamamilə ideoloji səbəblərlə başladıb. Həmin rejim elan etdi ki, İsrail onun əsas düşmənidir və məhv edilməlidir. O vaxtdan bəri İran rejimi bu məqsədə çatmaq üçün fəaliyyət göstərir. Ona görə də normallaşma üçün Tehranda mövcud olan yanaşmanın dəyişməsi lazımdır, bu isə yalnız rejim dəyişərsə mümkündür".

Onun sözlərinə görə, Netanyahunun Bakıya səfəri, ilk növbədə, İsrail və Türkiyə arasında gərginliyin azaldılması üçün Azərbaycanın vasitəçiliyi ilə aparılan danışıqlar və Azərbaycanın ABŞ-ın patronajı altında "Avraam Sazişi"nə mümkün qoşulması ilə bağlıdır.

Yeri gəlmişkən, ötən həftələrdə Bakıda Türkiyə və İsrail nümayəndələrinin görüşü olub. Netanyahunun ofisi bu görüşü təşkil etdiyi üçün Azərbaycan rəhbərliyinə minnətdarlıq edib. İki il əvvəl də tərəfləri barışdıran tərəf Bakı olub. Bu mənada Ərdoğanla Netanyahunun görüşünü təşkil etməkdən Azərbaycan məmnun olardı. Üstəlik, belə bir dialoq dünyanın diqqət mərkəzinə düşəcək hadisəyə çevriləcək. Lakin Qəzza bölgəsində dinc əhalinin hücumlar nəticəsində həlak olduğu, Türkiyə liderinin yəhudi baş nazirinin ünvanına ağır ifadələr işlətdiyi bir zamanda onların bir araya gəlməsi inandırıcı görünmür.

**Yaxın Şərq siyasəti üzrə araşdırmaçı, politoloq Rüstəm Tağızadənin sözlərinə görə, Azərbaycanın Suriya üzrə dayanmış İsrail-Türkiyə dialoqunun vasitəçisi kimi rolu ön və mərkəzdədir. Onun fikrincə, İsrailin Suriyadakı İran və müvəkkil hədəflərinə təkrar zərbələr endirməsindən sonra Ankara və Təl-Əviv qarşılıqlı şübhələr içərisində qalıblar:** "Hama və Hələb ətrafında əməliyyatlar sabitliyi poza bilər. Bakı texniki danışıqlara və elçilərin göndərilməsinə ev sahibliyi etməklə sərhəd təhlükəsizliyi, hava məkanında ziddiyyətlərin aradan qaldırılması və Türkiyə bazalarının gələcəyinin aradan qaldırıla biləcəyi neytral zəmin təklif edə bilər".

**Vasitəçilikdən başqa, enerji və müdafiə ticarətinin tərəfdaşlığın əsasını təşkil etdiyini deyən politoloq hesab edir ki, Azərbaycan İsrailin neft idxalının 60 faizindən çoxunu hətta regional böhranlar zamanı açıq qalan marşrutlar vasitəsilə təmin edir:** "Bunun müqabilində İsrail müdafiə şirkətləri Bakıya dəqiq idarə olunan hərbi sursatlar, pilotsuz təyyarələr və kibertəhlükəsizlik sistemləri satırlar. Bu, Azərbaycanın İran və Ermənistan qarşısında əlini gücləndirən imkanlardır. Netanyahunun səfərinə, şübhəsiz ki, yeni satınalma memorandumları və aerokosmik və enerji infrastrukturunda birgə müəssisə elanları daxil olacaq, bu da iki ölkəni yüksək paylı qarşılıqlı asılılıqda bağlayır".

**R.Tağızadənin zənnincə, ən təsirli ölçü ortaya çıxan anti-İran oxudur:** "Azərbaycan İranın şimal-qərbi ilə həmsərhəddir, burada Tehran uzun müddətdir etnik azərbaycanlılar arasında nüfuz əldə etmək istəyir. İranın Qüds Qüvvələrinin günahlandırdığı Azərbaycan torpaqlarında təkrar-təkrar qarşısı alınan terror planları Bakı və Qüds arasında ortaq təhlükəsizlik təhdidləri anlayışını formalaşdırıb. Eyni zamanda Tehrana hər hansı təcavüzün şimaldan və cənubdan koordinasiyalı cavab tədbirləri riskinin olduğunu göstərir. Beləliklə, Netanyahunun Bakıda olması İranın regional ambisiyalarını cilovlamaq üçün İsrailin daha geniş strategiyasında de-fakto şimal cəbhəsini təsdiq edir".



**Politoloqun bildirdiyinə görə, Tramp üçün bu səfər xatırladır ki, Azərbaycan və Cənubi Qafqaz Yaxın Şərq siyasətində diqqətdən kənarda qala bilməz:** " Stiv Uitkoff kimi ABŞ nümayəndələri artıq Bakının Tehranla nüvə danışıqlarında vasitəçi roluna işarə ediblər. Netanyahunun öhdəliyi Azərbaycanın İranla etimadın möhkəmləndirilməsi tədbirləri ilə bağlı təkliflərinə ağırlıq əlavə edir. Netanyahunun səfəri Omanda yenilənmiş ABŞ-İran nüvə diplomatiyası və Əliyev, Ərdoğan və Suriyanın keçid rəhbərliyi arasında pərdəarxası təmaslar fonunda baş tutur. Azərbaycan özünü "İbrahim Sazişləri"nin elementlərini, Şanxay Əməkdaşlıq Təşkilatının təhlükəsizlik dialoqlarını və NATO-nun Qara dəniz cinahındakı strateji maraqlarını birləşdirən yeni yaranan regional təhlükəsizlik arxitekturasının mərkəzində yer alır. Bakının bu paralel yollara ev sahibliyi etməsi - İsrail-Türkiyə-Suriya danışıqlarından tutmuş ABŞ səfirlərinin səfərlərinə qədər - onun münaqişələri idarə edə və böyük dövlətlərin rəqabətini kinetik toqquşmalardan daha çox institusional forumlara yönləndirə biləcək çoxtərəfli çərçivə yaratmaq ambisiyasını nümayiş etdirir".

**Ekspertə görə, Netanyahunun Bakı səfəri dərhal nəticə verəcək - silah müqabilində yeni enerji sövdələşmələri, birgə təlimlər haqqında memorandumlar və ola bilsin ki, Azərbaycanın "İbrahim Razılaşmaları"nın iqtisadi ölçüsünə baş vurması və daha dərin gəlir geosiyasi nəticələr verə bilər:** "Azərbaycan Avrasiyanın vasitəçilik mərkəzi rolunu möhkəmləndirir. Türkiyə İsraillə soyuq münasibəti azaltmaq üçün üz-üzə qənaət yolu qazanır və ABŞ bir vaxtlar təbii qəbul etdiyi bölgədə təsir rıçaqlarını saxlayır. Ən nəhayət, Netanyahunun bu səfərlə Bakıdakı missiyası Yaxın Şərq-Qafqaz əlaqəsində yeni cəbhə yaratmaq üçün enerji, təhlükəsizlik və diplomatiyadan istifadə etməklə böyük bir strateji oyundur. Bu, Azərbaycanın çoxqütblü rəqabətin əvəzsiz döngəsi kimi yüksəlişini vurğulayır və regional nizamın növbəti mərhələsinin təkcə böyük dövlətlərin paytaxtlarında deyil, Azərbaycanın paytaxtında yazılacağına işarə edir".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Kreml Paşinyanı növbədənkənar seçkiyə məcbur edir

## İrəvandakı ruspərəst qüvvələr indidən müxalifəti birləşməyə çağırır; Nikolu kritik seçki sınağı gözləyir - iki fərqli proqnoz

**Erməni mediası Nikol Paşinyanın növbəti parlament seçkilərinə hələ il yarım qalmasına baxmayaraq, artıq öz seçki siyahısını formalaşdırmağa başladığı haqda yazır. “Hraparak” nəşri qeyd edir ki, hakimiyyət dəfələrlə növbədənkənar seçkilərə getməyəcəyini bildirib. Məlumatda deyilir ki, siyahı tərtib edilərkən ciddi kriteriyalar tətbiq edilməyəcək, həlledici amil yalnız Mülki Müqavilə Partiyasının liderinin iradəsi olacaq.**

Mənbələr bildirir ki, hazırkı deputatların bir çoxu yeni siyahıya düşməyə bilər və parlamentdəki “Mülki Müqavilə” fraksiyasının hazırkı tərkibinin təxminən 80%-i dəyişdiriləcək.

"Nikol Paşinyan erməni seçicisini növbəti dəfə çaşdırmaq və onun səsini almaq, onu yeni kadrların köhnələrin həll etmədiyi problemləri həll edəcəyinə inandırmaq üçün çox da tanınmayan şəxslərdən ibarət tamamilə yeni siyahı təqdim etmək istəyir. Yeri gəlmişkən, onların “Real Ermənistan” adı altında çıxış edəcəkləri barədə şayiələr var", - “Hraparak” yazır.



“Ermənistan əhalisinin təxminən 80%-i indiki hakimiyyətin siyasətini dəstəkləmir. Hesab edirəm ki, 2026-cı ildə "Mülki müqavilə"nin öz hakimiyyətini davam etdirməsi ehtimalı praktiki olaraq qeyri-realdır". “Gallup”un Ermənistan nümayəndəliyinin rəhbəri Aram Navasardyan belə deyib. Onun sözlərinə görə, seçkilər zamanı hakimiyyətin istifadə edəcəyi hiylələrə, qanun pozuntularına baxmayaraq, onların əksəriyyətin səsini qazanması mümkün olmayacaq. “Hakimiyyətin demək olar ki, hər gün müstəqil və şəffaf seçkilər keçirdiklərini bəyan etmələrinə baxmayaraq, reallıq tamamilə bunun əksidir”.

Bu arada Ermənistanın sabiq prezidenti Robert Köçəryan müxtəlif siyasi qüvvələrə birləşməyi təklif edib. “Bəli, görürəm ki, konkret məqsəd ətrafında birləşmək olar”, - Robert Köçəryan Ermənistan Universitetinin tələbələri və müəllimləri ilə görüşündə belə deyib.

“Bu, bizim birləşmə deyərkən nəyi nəzərdə tutmağımızdan asılıdır. Əgər bununla bütün müxalifətçiləri toplayıb "hamı birlikdə" demək istəyiriksə, bu baş verməyəcək. Gəlin, özümüzü aldatmayaq. Məncə, ümumi məqsəd güdmək, oyun qaydalarını müəyyən etmək, bir-biri ilə danışıqlar aparmaq realdır. Uğur qazananlar koalisiya yaradıb birgə işləməlidirlər", - deyə Köçəryan bildirib.

Eks-prezident əlavə edib ki, 15 və ya 20 birləşmədən ibarət ittifaq yaratmaq qeyri-realdır, nəticə verməyəcək və özünü aldatmağa dəyməz. “Xoş arzular həmişə işləmək düstur olmur”, - deyə Köçəryan bildirib.

Keçmiş dövlət başçısının birlik mesajı çox güman ki, mümkün növbədənkənar seçkilərə hesablanıb. Çünki Köçəryan növbəti seçkilərdə qalib gəlmək şansının mümkünsüz olduğunu bilir. Son rəy sorğuları Köçəryanın siyasi reytinqinin 2 faiz civarında olduğunu göstərir. Bu göstərici ilə eks-prezident və onun hazırkı parlamentdə təmsil olunan “Ermənistan” fraksiyası 5 faizlik barajı keçə bilməz. Köçəryan bu birliyi ittifaq şəklində təsvir edir. Bunun qarşılığında Köçəryan onunla birgə addımlayanlara seçkilərdə qalib gələcəyi təqdirdə koalision hökumətdə yer vəd edir. Ancaq bu birliyin heç də asan olmadığını özü də etiraf edir.

Erməni ekspertləri o fikirdədir ki, Köçəryan Moskvanın əmrlərini icra edir və Paşinyana seçkilərdə hər cür əngəl yaratmaq missiyası ona tapşırılıb. Çünki o, həm də Putinin Ermənistan coğrafiyasında ən yaxın adamıdır.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Arif İsmayılbəyli** Ermənistanda birləşmiş müxalifətin seçki yolu ilə qələbəsini istisna edir. Onun fikrincə, bu qüvvələrin reytinqi yerlərdə sürünür və erməni xalqı vahid müxalifətə səs verməyəcək. Bununla belə, son bələdiyyə seçkilərində Paşinyanın partiyasının yetərli səs almadığını xatırladan A.İsmayılbəyli hesab edir ki, iqtidarın da nüfuzu əvvəlki deyil: “Gümrü şəhərində kommunistlər qalib gəldi. Bu, Rusiya bağlantısı olan partiyanın qələbəsi idi. Paşinyan koalisiyaya getməli oldu. Köçəryan kommunistlərə də birləşmək üçün çağırış edə bilər. Həmçinin Daşnaksütyun partiyasının birləşmiş müxalifətdə iştirakı gözlənilir. Sadəcə, bu qüvvələr xalqın gözündən düşüb və ermənilər keçmişə - yeni fəlakətə qayıtmaq istəmirlər. Hazırda Paşinyanın komandası da güclü təbliğat aparır. Onlar ictimai rəyə təlqin edirlər ki, iqtidar Ermənistanı Avropaya aparır, müxalifət ətəyindən tutub çəkir və aşağıya, yəni vassallığa dəvət edir. Erməni xalqının belə bir seçimi olduğu nümayiş etdirilir”.

**Partiya rəsmisinin fikrincə, seçkilər 2026-cı ildə keçiriləcək və erkən olmasını gözləmir:** “Köçəryanın birləşmək çağırışı gələn ilə hazırlıqdan xəbər verir. Əgər Ukrayna müharibəsi o vaxta qədər qurtarsa, Rusiya Ermənistandakı tərəfdarlarını daha aktiv şəkildə dəstəkləyəcək. Moskva Saakaşvili kimi, Paşinyanı da seçki yolu ilə devirmək istəyir. Ona görə ki, hərbi variant, çevriliş mümkün görünmür. Sadəcə, Ermənistanda yeni İvanişvili olmalıdır. Məncə, Paşinyan çətinliklə də olsa qalib gələcək. Çünki Qərb onu dəstəkləyir və Ermənistanda ABŞ kəşfiyyatı iş aparır. Bu fəaliyyət QHT sektorunda xüsusi təsir gücünə malikdir. Hər şeydən ümdə isə Paşinyanın belə bir kritik mərhələdən çıxması üçün Azərbaycan və Türkiyə ilə normallaşma prosesini daha da yaxşılaşdırması qaçılmazdır”.

**Siyasi şərhçi Ramiyə Məmmədova isə hesab edir ki, 2026 Paşinyan üçün həlledici il olacaq. Onun sözlərinə görə, müxalifət yeni liderlə meydana çıxa bilərsə, iqtidara ciddi başağrısı yaradacaq:** “Müxalifət xərclənmiş fiqurlarla - Köçəryanla, Sərkisyanla, Saqatelyanla nəticə qazana bilməz. Paşinyan istərdi ki, rəqibləri yenə də bu şəxslərin partiyaları olsun. Amma parlament seçkilərində müxalifətin birliyi ən yaxşı halda fraksiya qurulmasına səbəb ola bilər. Bununla belə, seçkilərdə Vətəndaş Müqaviləsi Partiyası hakim olmağı bacaracaq. Ermənistanda alternativ görünmür. Paşinyanın reytinqi yüksək olmasa da, qarşısına çıxacaq ciddi rəqib yoxdur. Məncə, Rusiya Ermənistanda hakimiyyət dəyişikliyində indi maraqlı görünmür. Onsuz da Nikol Kremlin sözünə baxır. Hazırda ticarət dövriyyəsi 12 milyardı keçməkdədir. Rusiyaya da bu lazımdır. Sadəcə, təhlükəsizlik sahəsində bəzi addımları Moskvanın xoşuna gəlmir. Amma Ermənistan Rusiyanın əlindən hara qaçacaq ki?”

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**




## “Parada gedim-getməyim” dilemması

**Ermənistanın baş naziri Nikol Paşinyanın çətin duruma düşdüyü barədə məlumat yayılıb. Bəllidir ki, Paşinyanın faşizm üzərində qələbənin 80 illiyini qeyd etmək üçün Moskvaya dəvət alması Qərbin narazılığı ilə qarşılanıb.**

Avropa İttifaqı açıq şəkildə onu şantaj edir ki, 2025-ci il mayın 9-da Moskvada keçiriləcək Qələbə paradına getməsin. İddialara görə, Paşinyana bildirib ki, Moskva tədbirlərdə iştirak etsə, sanksiyalara məruz qalacaq. Rusiya artıq Ermənistanın iştirakını təsdiqləyib və həmçinin elan edib ki, o, paradda iştirak edəcək.

Bu arada erməni mənbələri onu da yazır ki, Ukrayna Prezidenti Vladimir Zelenskinin bəyanatı da Ermənistanın baş nazirində narahatlıq yaradıb. Belə ki, Zelenski Telegram kanalında “onlar paradlarının şübhə altında olmasından narahatdırlar və narahat olmaqda haqlıdırlar”, - deyib. Bundan əvvəl, aprelin 23-də Ali Radanın keçmiş deputatı İqor Lapin bəyan etmişdi ki, Moskvanın Qırmızı Meydanı Qələbə paradı zamanı Ukrayna Silahlı Qüvvələri üçün “qanuni hədəf”dir.

Onun sözlərinə görə, Ukrayna Silahlı Qüvvələri çoxlu sayda rus hərbçisinin cəmləşəcəyi Qələbə paradına hücuma hazırlaşır. “Ukrayna xüsusi xidmət orqanları belə bir zərbənin planlaşdırıldığını gizlətmir və mayın 9-da Moskvaya "Ukrayna hədiyyələri" vəd edir", - Lapin deyib.

“Mayın 9-da parad olacaq”. Bunu isə Kremlin mətbuat katibi Dmitri Peskov bildirib. Kiyevdən Moskvada keçiriləcək 9 may paradı ilə bağlı təhdidləri şərh edən Kreml sözçüsü Ukrayna lideri Zelenskinin təhdid bəyanatlarını uğursuz adlandırıb. “Zelenski çoxlu fərqli bəyanatlar verir. Onların böyük hissəsi uğursuzdur”, - Peskov vurğulayıb.

**“Johovurd” qəzeti isə fərqli məlumatlar yayır.** “Mayın 9-da MDB-yə üzv dövlətlərin rəhbərləri Moskvada İkinci Dünya müharibəsində Qələbənin 80 illiyinə həsr olunmuş şənliklərdə iştirak edəcəklər, lakin Paşinyanın səfərinin təfərrüatları gizli saxlanılır”.

"Johovurd"un sorğusuna cavab olaraq baş nazir aparatından bildirilib ki, Paşinyanın bütün səfərləri ilə bağlı vaxtında və lazımi məlumat verilir. “Məsələ burasındadır ki, "Johovurd" qəzetinin məlumatına görə, Paşinyan Moskvada gecələməyə hazırlaşır və xarici siyasət məsələlərini pərdə arxasında həll etməyə çalışacaq. Xüsusilə o, Moskva və Kremlin etimadını qaytarmağa çalışacaq", - erməni nəşri yazır.

❑ **“Yeni Müsavat”**

# Bakıda “atəşkəs kimi” anlaşma

## İran mediası imzalanan sənədə əməl edəcəkmi?

**Məlum olduğu kimi, İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian Azərbaycanda rəsmi səfərdə olub. Səfər zamanı prezidentlər birgə bəyanat imzalayıb və müxtəlif sahələr üzrə mübadilələr aparılıb.**

Həmçinin Medianın İnkişafı Agentliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında media əməkdaşlığı haqqında sənəd imzalanıb. Ötən illər ərzində belə sənədlər Türkiyənin, Qazaxıstanın, Özbəkistanın və digər respublikaların uyğun strukturları ilə imzalanıb.

Ötən əsrin 90-cı illərindən etibarən Azərbaycanın varlığını heç cür qəbul edə bilməyən İran hökuməti Azərbaycana qarşı təbliğat aparan onlarla beyin mərkəzi və informasiya resursları yaradıb. Bunlardan bir hissəsi böyük miqyasda Azərbaycan üzrə ixtisaslaşıblar. Yüzlərlə əməkdaşı olan bu təsisatların bir çoxunun kadr təminatının İranın xüsusi xidmət orqanları və Xarici İşlər Nazirliyi tərəfindən həyata keçirildiyi məlumdur.

İran mediası və hakimiyyətdə təmsil olunan bəzi millətçi radikal qüvvələrə bağlı saytlar zaman-zaman ölkəmizə qarşı iftira kampaniyası aparır. Bu özünü rəsmi Bakının ünvanına saxta ittihamlar, açıq böhtanlar səslənməsi yolu ilə büruzə verir. Məhz bu tip media Azərbaycanla münasibətlərdə hansısa irəliləyiş olanda ortaya çıxıb pis niyyətlərini göstərirlər. Həmin təsisatlar və informasiya resurslarının xüsusilə “Aprel döyüşləri” və Vətən müharibəsindən sonra Azərbaycana qarşı düşmən mövqeyi və dezinformasiya kampaniyasını daha da genişləndirdiyini yada salmaq kifayətdir.




İranda Azərbaycana qarşı sistemli təbliğat aparmaq üçün “ixtisaslaşmış” KİV, sosial şəbəkə hesabları yaradılıb. “Səhər TV”nin, “Nur-az” xəbər portalının və digərlərinin fəaliyyəti buna əyani misaldır. Azərbaycan dövlətinə qarşı neqativ təbliğat aparmaq üçün təkcə Facebook və Telegram şəbəkələri üzərindən çoxlu sayda hesab açılıb. İranda durmadan, fasiləsiz şəkildə yalan, böhtan, təxribatçı məlumat paylaşırlar.

Rəsmi Tehran da dəfələrlə iddia edib ki, guya Azərbaycan mediasında İran təhqir edilir. Əslində ölkəmizin mediasında İrana qarşı məqalələr yazılsa da, bu tənqidi materiallardır və reallığı əks etdirir. İran mediasında isə hər gün Azərbaycan təhdid olunur, “Bakı respublikası” kimi təqdim edilir, dövlət olmadığımız iddia olunur, hər cür uydurmalar tirajlanır. O səbəbdən media sahəsində İranla əməkdaşlıq mühümdür, amma görək bu anlaşma istənilən səviyyədə işləyəcəkmi?

**Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid “Yeni Müsavat”a bildirdi ki, İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana səfəri ciddi və mühüm hadisə idi. İranla Azərbaycan arasında gərginlik yaradan məsələlərin müzakirə baxımından da bu vacib səfər idi:** “İran mediasında Azərbaycana qarşı təhdidlər daim müşahidə olunur. Son zamanlar isə bir qədər çoxalıb. Hesab edirəm ki, milliyyətcə türk olan İran Prezidentinin bu səfəri cürətli addım idi və səfər zamanı imzalanan media əməkdaşlığı haqqında sənəd də münasibətlərin yaxşılaşmasına təsir edəcək. Şübhəsiz ki, İran tərəfi münasibətlərin yaxşılaşmasını istəyirsə və səmimidirsə, bu sənədi hüquqi bir sənəd olaraq əsas götürüb mediada Azərbaycana qarşı kampaniyanın qarşısının alınmasına çalışacaq. Ümid edək ki, İranın daxilində Azərbaycanla münasibətləri kəskinləşdirmək istəyən qüvvələrin gücü münasibətlərin yaxşılaşmasına çalışan qüvvələrdən zəif olacaq və imzalanan sənəd həyata keçiriləcək. Azərbaycan mediası İrana qarşı təhdid və təhqirə yol verən kampaniya aparmır. Azərbaycan tərəfi imzasına hörmət qoyan dövlət kimi imzalanan məlum sənəddən irəli gələn məsələlərə də əməl edəcək”.

**Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı isə bildirdi ki, Medianın İnkişafı Agentliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında imzalanan “Media əməkdaşlığı haqqında” sənəddə konkret nələrin qeyd edildiyi haqda dəqiq bilgiyə malik deyil. Bunu bilmədən dəqiq proqnoz vermək çətindir:** “Sənəddə hansı istiqamətlərə media əməkdaşlığının nəzərdə tutulduğunu bilsək, o zaman söyləmək olar ki, müsbət nəticəsi olacaq, yoxsa olmayacaq. Əgər sənəddə bir-birinə qarşı ittihamlara, təhdidə yol verilməməsi məsələsi əksini tapıbsa, İran mediasının buna əməl edəcəyinə inanmıram. Yenə də həmişəki Azərbaycana qarşı təhdid xarakterli yazılar davam etdiriləcək. Çünki İranda bunda maraqlı qüvvələr var və İran mediasına güclü təsir imkanındadırlar. Azərbaycan tərəfi İran mediası ilə əməkdaşlıq edə bilər. Məsələn, biz Azərbaycanı və Azərbaycan mədəniyyətini, dilini, ədəbiyyatını təbliğ eləməliyik. Bu məsələlərdə əməkdaşlıq edilməlidir. Prezident Pezeşkian Şəhriyarın şeirini Bakıda da səsləndirdi. Bu yaxşıdır. Ancaq daha yaxşı o olar ki, Məsud Pezeşkian ana dilində məktəblər açılmasına nail olsun. Şeirdən vacib budur”.

❑ **Etibar SEYİDAĞA,
“Yeni Müsavat”**

# Rəsulzadənin bayram, Elçibəyin “qara tarix” dediyi gün

## Azərbaycanda əməkçilər 1 mayı bayram kimi ilk dəfə 1919-cu ildə qeyd ediblər



**Bəzi ölkələrdə 1 mayı fərqli adlarla - Dünya Fəhlələrinin Həmrəylik günü, Dünya Zəhmətkeşlərinin Həmrəylik günü, Əmək günü, Beynəlmiləlçilik günü, Əmək və Bahar günü və s. qeyd edirlər.**

Bəzi ölkələrdə fərqli adətlər də var. Məsələn, 1 mayda Fransada qızlara zanbaq gülü hədiyyə edilir. İtaliyada isə gül festivalı keçirilir. Almaniyada bayram münasibətilə yarmarkalar açılır. Həmin yarmarkalarda sakinləri rəqs və digər əyləncələrlə qarşılayırlar. İsveçdə isə mayın 1-də isveçlilər evdən çıxardıqları tullantıları yandırırlar. (Moderator.az)

Bundan əlavə, Rusiyada 1 may Əmək və bahar bayramı, Finlandiyada tələbələrin bahar karnavalı kimi qeyd edilir. 1996-cı ildən Qazaxıstanda 1 may tarixi xalqın birlik bayramı elan olunub. İngiltərədə həmin gün milli paltar geyinən sakinlər rəngli lentlər bağlanmış dirəklərin ətrafında rəqs edərək dünyaya sülh və əmin-amanlıq arzulayırlar. Belarusda, Qırğızıstanda, Çində, Şri-Lankada 1 may əmək bayramı adı ilə qeyd olunur.

Tarixi reallıq bundan ibarətdir ki, ilk dəfə 1856-cı ildə Avstraliyada 8 saatlıq iş gününün tətbiq edilməsi ilə bağlı bayramın qeyd olunması ortaya atılıb. Bu ölkədə yerli işçilər artıq toplantı və əyləncə ilə əlaqədar səkkiz saatlıq iş gününün lehinə nümayiş olaraq bir günlük özlərini tamamilə işdən azad etməyi qərara alıblar.

Avstraliyalı əməkçilərin bu nümunəsini daha sonra amerikalılar təkrarlayıb. Belə ki, 1 may 1886-cı ildə bütün sənaye mərkəzlərində - Nyu-York, Çikaqo, Filadelfiya və Baltimorda 200 mindən çox işçi boykota başlayıb. Çikaqoda 80 min fəhlə haqları olan “8 saatlıq iş günü” tələbi altında sıx sıralarla möhtəşəm yürüş keçirib.

1889-cu ilin iyulunda Parisdə toplanan II İnternasionalın 1-ci Konqresində 1 may tarixi dünya zəhmətkeşlərinin birlik, mübarizə günü olaraq qəbul edilib. Hər ilin 1 may tarixini mitinqlər, aksiyalar və boykotlarla qeyd etmək qərarı alınıb.

Sovet İttifaqında bu bayram ən möhtəşəm səviyyədə keçirilirdi. Mayın 1-də şəhərlərdə böyük nümayişlər keçirilər, möhtəşəm bayram əhval-ruhiyyəsi hökm sürərdi. Peşəsində fərqlənən əməkçilərə mükafatlar, fəxri adlar verilər, Sovet İttifaqının paytaxtına - Moskvaya dünyanın bütün ölkələrindən dəvət olunan qonaqlara sosializmin nəyə qadir olduğu nümayiş etdirilərdi.

Dünyanın 100-dən artıq ölkəsində bu gün ictimai bayram kimi, 70-ə yaxın ölkəsində isə dövlət səviyyəsində rəsmi bayram günü olaraq qeyd edilir. Onların arasında Rusiya, İspaniya, Portuqaliya, Yunanıstanı qeyd etmək olar. Xüsusən də Çin, Şimali Koreya, Vyetnam, Kuba, Venesuela, Boliviyada bu bayram kütləvi şəkildə qeyd olunur. ABŞ və Yaponiyada 1 may bugünkü tarixdə deyil, başqa təqvimdə qeyd edilir.

Əksər 1 may nümayişləri dinc şəkildə və insidentsiz başa çatsa da, bəzən planlı qarşıdurmalar da yaradılır. Bəzi ölkələrdə bayram günü nümayişə çıxan işçilərin qanı tökülür. İndiyə kimi 1 may nümayişlərində 1000-dən çox insan öldürülüb.

Azərbaycanda ilk dəfə 1919-cu ildə işçilər 1 may bayramı qeyd ediblər. Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə ADR hökuməti bu bayramda fəal iştirak edib. Onlar bu bayramın sinfi qarşıdurma yaradan amil kimi qiymətləndirilməsini rədd edirdilər. AXC-nin süqutundan sonra da mayın 1-i bayram kimi qeyd edilib.

Belə ki, 1920-ci ildən başlayaraq, 1 may Azərbaycanda da rəsmi bayram günü kimi qeyd olunub. Bu bayram günündə rəsmi paradlar, qəbullar və el gəzintiləri olub. İnsanlar bu gündə təbiət qoynuna çıxıblar. Təsadüfi deyil ki, İsmayıllı rayonunda məşhur “May dərəsi” var. 1 mayda qonşu rayonlardan insanlar bura axışır, təbiət qoynunda gözəl bir gün keçirirdilər. Bakılılar üçünsə “mayovka”nın ünvanı indiki Qara Qarayev metrosunun Bakıxanov qəsəbəsinə tərəf hissəsindəki hündür ərazi idi. 1 mayda şəhər sakinləri bu əraziyə axışıb, burada gözəl və şən bir gün keçirirdilər.

Lakin 1992-ci ildə sabiq prezident Əbülfəz Elçibəyin göstərişi ilə 1 Mayın rəsmi səviyyədə qeyd edilməsinə son qoyulub. Səbəb kimi isə sovet ideologiyasının atributlarından bu bayramın biri olduğu göstərilib.

❑ **“Yeni Müsavat”**

# Moldova "Rusiyadan qurtuluşun Azərbaycan nümunəsini" öyrənir

**"Moskvanın məqsədi Moldovanı Rusiyanın protektoratı altına qaytarmaqdır. Moldovanın Avropa vektorunun dəyişməsi üçün real təhlükə yaradan kifayət qədər rusiyapərəst qüvvələr var. Son zamanlar biz müşahidə etdik ki, 2025-ci il sentyabrın 28-də seçki olduğundan rusiyayönlü partiyalar son dərəcə fəallaşıb, müxtəlif koalisiya və bloklar yaradıblar. Moldova Respublikası parlamentli dövlətdir və ssenari Gürcüstandakı kimi ola bilər. Orada, məlum olduğu kimi, parlament və hökumət rusiyapərəstdir, ölkə prezidenti yaxın vaxtlara qədər avropapərəst olub, hazırda Avropaya inteqrasiya prosesi dayandırılıb. Rusiya Federasiyasının Moldova ilə bağlı eyni planı var".**

## Ekspertlər düşünür ki, Kişinyov Dnestryanı problemi həll etmək gücündə deyil, çünki...

Moldova Müdafiə Nazirliyinin Hərbi Kəşfiyyat İdarəsinin keçmiş direktoru, avropayönlü KUB (Birlik və Rifah Koalisiyası) siyasi partiyasının sədr müavini, ehtiyatda olan polkovnik Yuri Briçaq Ayna.az-a müsahibəsində belə deyib.

O, "Azərbaycanın güc yolu ilə həll edə bildiyi Dağlıq Qarabağla Dnestryanı problemi ətrafındakı münaqişədə hansı ümumi cəhətləri görmək olar" sualına belə cavab verib: "Qondarma separatçı "respublika"ların - Dağlıq Qarabağ və Dnestryanı bölgənin ümumi kökləri var: hər iki halda Rusiya Federasiyası və qondarma "sülhməramlılar" iştirak edirdi. Hər iki halda separatçı ərazilərin rəhbərləri Rusiya Federasiyasının xüsusi xidmət orqanları tərəfindən hazırlanıb və dəstəklənib. Dnestryanı bölgə əhalisinin 80%-i həm də Moldova vətəndaşlarıdır. Avrointeqrasiya Dnestryanı əhalisi üçün sabitliyi və sosial rifahı təmin edə bilər: bu faktı Avropa istəkləri ilə Moldova Respublikasına inteqrasiya edən sakinlərin əksəriyyəti etiraf edir.

Separatçı və Rusiya hərbi qüvvələri hökumətin inkişaf tərəfdaşları və beynəlxalq təşkilatların dəstəyi ilə həyata keçirməli olduğu bir sıra prosedurlar vasitəsilə aradan qaldırıla bilər. Azərbaycanda münaqişənin həlli bizə Rusiyanın protektoratından qaçmağın mümkün olduğunu göstərir".

**Yuri Briçaq deyib ki, Dnestryanı problemin həlli hazırkı hökumət üçün prioritet deyil:** "Ölkə inteqrasiyasının ən yaxşı nümunəsi Ermənistanın işğal etdiyi əraziləri geri qaytaran Azərbaycandır. Hazırda mövcud vəziyyəti nəzərə alaraq Moldova və Dnestryanı problemini qonşu dövlətlərin - Rumıniya və Ukraynanın dəstəyi və köməyi, habelə beynəlxalq mexanizmlər hesabına həll edə bilər".

**Siyasi təhlilçi Sona Əliyeva "Yeni Müsavat"a bildirdi ki, hazırda keçmiş SSRİ-nin yaratdığı ən müşkül problemlərdən biri də Dnestryanı problemidir:** "Moldova bu vəziyyətdə problemi həll etmək gücündə deyil. Bəli, Azərbaycan Qarabağ düyününü 30 ildən sonra həll etməklə bütün dünyadakı donmuş münaqişələri yenidən aktiv fazaya qaytardı. İndi hər kəs öz problemini həll etməyə çalışır. Moldova iqtisadi və hərbi cəhətdən separatçılarla baş-başa gəlmək gücündə deyil. Üstəlik, Putin administrasiyası keçmiş SSRİ-ni hissə-hissə geri qaytarmaq, bərpa etmək üçün əməli-praktiki addımlara başlayıb. Əvvəlcə Gürcüstan əraziləri işğal olundu. Daha sonra Krımın ilhaqı gerçəkləşdi. İndi də Donbas regionu Ukraynadan qoparılmaq üzrədir. Hadisələrin gedişatı onu göstərir ki, bu gedişlə Rusiya Ukrayna savaşını bitirdikdən sonra yönünü və istiqamətini Moldovaya çevirəcək. Hətta bütünlüklə Moldovanın işğalı gerçəkləşə bilər. Bu zaman Rumıniya ilə Rusiyanın maraqlarının toqquşması da istisna edilmir".

**Milli Məclisin deputatı Vüqar İskəndərov deyib ki, Azərbaycan müsbət məna-da nümunə ortaya qoyub:**




**"Azərbaycan öz gücünə torpaqlarını işğaldan azad etdi. Bunun üçün ağıllı, düşünülmüş siyasət həyata keçirildi. Azərbaycanın iqtisadi qüdrəti artırıldı. Əldə edilən iqtisadi inkişaf fonunda ordu gücləndirildi. Son nəticədə də müzəffər Ali Baş Komandanın qətiyyəti və Dövlət-Xalq-ordu birliyi sayəsində tarixi zəfər əldə edildi. Göründüyü kimi, artıq bu, oxşar problemlərlə üzləşən digər ölkələr üçün də örnək təşkil edir. Bu baxımdan Moldovada Dnestryanı problemini həll etmək üçün Azərbaycan nümunəsindən istifadəyə dair çağırışlar başadüşüləndir".**

**Azad Vətən Partiyasının sədri Akif Nağı bildirdi ki, Moldova seçim qarşısındadır:** "Bilirsiniz ki, orada açıq şəkildə avrointeqrasiya yolu tutulub. Prezident seçkisi ilə eyni vaxtda Avropa İttifaqına üzvlük məsələsi müzakirəyə çıxarıldı. Müsbət nəticə də əldə etdilər. Bu, asanmı olacaq? Rusiya buna imkan verəcəkmi? Moldovada Avropa ilə bağlı iki yanaşma var. Rumıniyaya birləşmə istəyi var ki, bu da tarixlə bağlıdır. Vaxtilə Bessarabiya dövləti olub və SSRİ vaxtında Rumıniyadan qoparılıb, Moldova dövləti yaradılıb. Moldovalılar üçün ikinci variant birbaşa Avropa ailəsinə daxil olmaqdır. Hər ikisi çox çətin görünür. Rumıniya o qədər də Moldovanın birləşdirilməsində maraqlı görünmür. Moldovada proseslər məsafədən idarə etməyə çalışırlar. Görünür, Rusiya ilə qarşıdurmaya getmək istəmirlər. Avropa da bu gün Rusiya ilə qarşıdurmaya getməkdə maraqlı deyil. Ukrayna nümunəsində gördülər ki, Rusiya Avropaya girə bilər. Digər ərazilərə də girməsini göz altına alırlar. Baltikyanı ölkələrə müdaxilə edə biləcəyi də gündəmə zaman-zaman gəlir. İndi Moldova rəhbərliyi çalışır ki, taleləri Ermənistanla eyni olmasın. Gürcüstanın da adını qeyd etmək olar. Ermənistanı ona görə deyirik ki, Azərbaycan torpaqlarını işğal etmişdi, özünü arxayın aparırdı, amma Azərbaycan Ermənistana qarşı sərt mövqeyini ortaya qoydu, nəticədə Ermənistan özü ağır vəziyyətə düşdü. Belə bir vəziyyətdə Moldova Rusiyaya qarşı açıq şəkildə ayağa dursa, durumu çox ağır olar. Dnestryanı bölgədə elektrik məsələsi ilə bağlı Rusiya dəstəyini ifadə etmək istədi, amma Moldova razı olmadı. Əvəzində Avropa İttifaqı kömək etdi. Amma Kreml bu məsələdə o qədər də israrlı görünmədi. Moldovanın Dnestryanı bölgə ilə bağlı səhvi ondan ibarət oldu ki, avropayönlü təşkilatları orada yarada bilmədi. Şəxslər, liderlər də ortaya qoya bilmədi. Tam şəkildə onlar Rusiya ilə bağlıdır. Son prezident seçkisində Moldova rəhbərliyi ona nail oldu ki, Dnestryanı bölgənin səsvermədə iştirakını əngəllədilər. Azərbaycan öz məsələsini hərbi yolla həll etdi. İstənilən halda müqayisə qüsurludur. Azərbaycan ilk növbədə daxilində birliyə nail oldu. Hərçənd ki, Moldovada bu birlik yoxdur. Rusiyameylli qüvvələr çoxdur. Moldova rəhbərliyi üçün bu birliyə nail olmaq çətin olacaq. Azərbaycanda bütün siyasi qüvvələr Qarabağ məsələsində bir mövqedən çıxış etdilər. Əsas vacib şərtlərdən biri bu idi ki, Moldovada bu yoxdur. Xalqla dövlət arasında Azərbaycanda birlik yarandı, bütün etniklər bir mövqedən çıxış etdilər, şəhidlər verdilər, amma Moldovada yoxdur. Moldovada ruh yüksəkliyi yoxdur. Azərbaycan Rusiya amilini neytrallaşdıra bilmişdi, öz gücü və təbii ki, Türkiyə amili ilə. Amma Moldova buna nail ola bilməyib. Əgər orada vəziyyət dəyişsə, Rusiya dərhal Dnestryanı bölgəyə qüvvələrini yeridəcək. Əslində qüvvələrini ora yerləşdirib də. Kifayət qədər orada silahları var. Amma hələ ki Moldovanın Azərbaycan nümunəsinə müraciət edib uğur qazanması mümkünsüz görünür".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# "Gerasimov doktrinası" nədir?

## Ekspert: "Məqsəd budur ki, ukraynalılar nəyin bahasına olur-olsun, sülh tələbi ilə Zelenskinin üzərinə getsinlər"

**"Son həftələr "dinc" danışıqlar fonunda Rusiya əlindən gələni edərək təzyiq göstərməyə və gücünü nümayiş etdirməyə çalışır. Bu səbəbdən də Ukraynaya - Krivoy Roqa, Sumıya, Kiyevə, Odessaya, Pavloqrada hücumların sayını xeyli artırıb. Yəni əslində Rusiya hərbçilərinə Kremldən icazə verilib ki, məhz dinc sakinləri öldürsün". Ayna.az xəbər verir ki, bu sözləri ukraynalı hərbi ekspert, aviasiya üzrə mütəxəssis Anatoli Xrapçinski yazdığı analitik məqaləsində qeyd edib.**



Ekspertin sözlərinə görə, bu, fiziki, informasiya və psixoloji müharibəni nəzərdə tutan məşhur "Gerasimov doktrinası"dır. "Belə ki, ukraynalılar yorulsunlar və nəyin bahasına olur-olsun, sülh tələbi ilə Ukrayna hakimiyyətinin üzərinə getsinlər. Rusiyanın bu cür addımlarını birtəhər dayandıra bilərikmi? Keyfiyyətli Qərb hava hücumundan müdafiə sistemlərimiz var - "Patriot", IRIS-T, SAMP/T. Bu üç sistem ballistik raketləri vura və qarşısını ala bilər. Ancaq bir nüans var: bu, yalnız hədəfə yaxınlaşmanın son, istilik mərhələsində baş verir", - deyə mütəxəssis qeyd edib.

**Xrapçinski xatırladıb ki, müasir ballistika düz trayektoriya üzrə yerə güllə atan raket deyil:** "Onun son hissədə manevr etməyə imkan verən mühərrikləri var. Bəli, bunlar kiçik hərəkətlərdir - soldan sağa, sürətlənmə və ya yavaşlama. Lakin onlar uçuş yolunun dəyişməsinə gətirib çıxarır ki, bu da raketin qarşısını almağı çətinləşdirir. Odur ki, raket imitasiya buraxmadığı halda, ballistik raketləri ən yüksək uçuş yolunda kəsən raket əleyhinə müdafiə sistemləri axtarmalıyıq. Xatırladım ki, bir müddət əvvəl Ukraynanın xarici işlər naziri Andrey Sibiqa Avropaya Ukraynanın bu istiqamətdə yeni müasir inkişafına sərmayə qoymağı təklif etmişdi. Amma vəziyyət həqiqətən də mürəkkəbdir. Əvvəla, çoxları bunun yalnız pulla bağlı olduğuna inanır. Bununla belə, bizim texnologiyalara da ehtiyacımız var: Avropada artıq həll edilmiş mühəndislik məsələləri var. Məsələn, SAMP/T ballistik raketlərin qarşısını ala bilən perspektivli inkişafdır. Amma biz davam etməliyik.

"İkincisi, Ukrayna niyə Avropa ilə birlikdə bu problemi həll etməyə çalışmalıdır? Çünki indiki geosiyasi şəraitdə bu problem bizim üçün eynidir. Avropanın beşinci nəsil təyyarələri, raket əleyhinə müdafiə sistemləri yoxdur. Üstəlik, Avropanın hərbi-sənaye kompleksi bazarı standartlaşdırılmayıb. Əllərində olan hər şey ABŞ-dan alınıb. Üçüncüsü, Avropanın quruda müasir müharibə aparmaq vizyonu, sadəcə olaraq, yoxdur. ABŞ Avropadan silah almaqla müdafiə xərclərini artırmağı tələb edir. Avropa bunu edir, lakin öz müdafiə sənayesinə sərmayə qoyur. Bununla belə, "eopards", BMP, dördüncü nəsil təyyarələr və s. ancaq daha təsirli həllər lazımdır", - deyə ekspert vurğulayıb.

YENİ MÜSAVAT
N 75 (8685) 2 may 2025



# Yandırıcı keçid balı

Zamin HACI
zaminhaci@gmail.com

**Məsud ağanın səfəri sayəsində Şəhriyarşünaslığımız da xeyli aydınlandı, minnətdarıq. Məsələn, şəxsən mən şairin "Azərbaycan" adlı bizdə çox məşhur şeirinin (Meydan hərəkatı vaxtı az qala hər küçədən o şeir ucalırdı) əslində farsca yazıldığını bilmirdim. 1960-cı illərdə şair Fikrət Sadıq tərcümə edibmiş. "Ya azad ol, ya tamam yan, Azərbaycan" - filan... Xatırladınız, böyük ehtimalla. Hərçənd indi bu misralardan destruktiv təxribat qoxusu gəlir. Arazın hər iki üzündə, həm də. İstər farsca oxu, istər azərbaycanca.**

Ancaq hər halda, mən bir az da dilxor oldum. Demək, uzun illərdir bizi aldadıblar. Ədəbi-bədii sahəmizdə bu çür saxtakarlıqlar, təəssüf ki, yeni deyil. Məsələn, Nizamini də bəzən Səməd Vurğunun, Süleyman Rüstəmin biabırçı tərcüməsində elə təqdim edirlər, sanki dahi gəncəli bunları bizim dildə yazmışdır. Nəticədə xalqın uşağında təsəvvür yaranır ki, Nizami yəqin elə həmin dövrün "Namiq Qaraçuxurlusu" olubdur, hətta bəlkə Namiqin bəzi şeirləri daha yaxşıdır. Boşboğazlıq olmasın deyə iki bənd şeir verirəm, özünüz qiymətləndirin. Bunu Səməd Vurğun Nizamidən tərcümə edib: "O vardı, hələ yoxkən yer, göy, ucalıq, alçaq, Varlıq yoxa çıxsa da, o, daim var olacaq". Bu isə Namiq müəllimin şeiridir: "Çox şeyi danışmıram qaraltmamaq üçün qanını, Sən bilirsən sevirəm canımdan artıq canını".

Başqa sahələrdə də bu cür problemlər vardır. Təzəlikcə Sumqayıt tərəfdə avtomobil istehsalı obyektinin açılış mərasimi oldu. Çox gözəl, çox pakizə. Ancaq biz bu cür avtomobil müəssisələrimizi neçənci dəfədir görürük? Rusiya, Çin, Belarus, Ukrayna, İran, Türkiyə, nə bilim, daha hansı dövlətlərin avtomobil zavodlarının ölkəmizdə indiyəcən o qədər çoxlu filialları açılıb ki, əgər hamısı qalıb işləsəydi, yalan olmasın, indi "Mercedes" zavoduyla kəllələşirdik.

Bu işlərin hamısı adətən bir atımlıq barıt olur, ardı gəlmir. Əks halda, Bakı, Sumqayıt, Naxçıvan, Neftçala, Şamaxı, Mingəçevir və sairə yerlərimizdə hazırda milli avtomobil sənayesi şütüməliydi. Niyə belədir? Çünki avtomobil istehsalı beş-üç maşının hissəsini gətirib burada yığmaqla düzəlmir. Dünya bazarında bu işin rəqabətinə davam gətirmək üçün kütləvi istehsal lazımdır. Milyardlarla beynəlxalq investisiya qoyulmalıdır. Yüz minlərlə maşın buraxmalısan. Robot texnikan, metallurgiya və plastik sənayen, dünya səviyyəli maşınqayırma mütəxəssislərin olmalıdır. Bunların hansı bizdə var? Alimlərimiz axırıncı dəfə Məşədi İbadın rəqsini oynayan robot kukla qayırmışdılar, o da AMEA prezidenti İsa müəllimin salamını belə almadı.

İmtahan Mərkəzi qəbul keçid ballarını elan etmişdi, orda 200 baldan aşağı olan bir sürü ixtisas vardı. İçlərindən biri də "avtomobil nəqliyyatı üzrə servis" idi. 4 il burda papağı günə verənəcən bir yaxşı motorist tapıb yanında şagirdlik eləsən məsləhət deyilmi? Bunlar hamısı pul tələsi, vətəndaşı dolamaqdır.

200 bal toplayıb geofizik olmaq mümkündürmü? Bu həm geologiyanı, həm fizikanı təhqir etməkdir. Bizdə mümkündür. O cümlədən turizm mütəxəssisi. Qərbi Kaspi Universitetində "turizmin təşkili" ixtisasına 157 balla girmək mümkün imiş. Bəlkə bizdə turizmin təşkili həm də belə "təhsil" üzündən bərbad haldadır, qoyulan bütün pullar batır, bir dəfə çaşıb gələn bir də gəlmək istəmir?

Pakistan və Misirdən kartof, Çilidən (!) qoz almağa məcburuq. Səbəbi Aqrar Universitetə 200 balla girən gələcəyin "aqronomları" deyilmi? 150 balla Kooperasiyada ekoloq oxumaq Bakının havasını lüzumsuz yerə çirkləndirməkdir.

Əksər universitetlərimizdə "biznesin idarə edilməsi" ixtisasına keçid balı 150-200 arasında dəyişir. Marketinq, menecment, maliyyə, mühasibat da o gündədir.

Dəqiq markerdir əslində. Biznesin hansı kökdə olduğunu göstərir. 150 yığ, gəl idarə elə.

Şair bəlkə ona görə yanıb tökülürmüş.

---




# ABŞ Konqresində anti-Azərbaycan dinləmələri

## Vaşinqtonda Azərbaycanla əməkdaşlıq tendensiyasının güclənməsi Kris Smit və onun kimi ermənipərəstləri narahat edib - Vardanyanın pulları konqresmenlərin iştahasını artırıb

**ABŞ-da erməni lobbiçilərinin növbəti təxribatı başlayıb. ABŞ Konqresinin Tom Lantos İnsan Haqları Komissiyası Azərbaycanda insan hüquqları ilə bağlı dinləmələr keçirib. Dinləmələrə Kris Smit sədrlik edib.**

"AzadlıqRadiosu"nun xəbərinə görə, bu komissiya Kris Smitin "BMT-nin İqlim Dəyişikliyi Konfransı COP29-dan sonra Azərbaycanda insan hüquqları" adlandırdığı qanun layihəsi hazırlayır. Smit iddia edir ki, guya Azərbaycan COP29-un uğurundan ölkənin nüfuzunu artırmaq üçün istifadə edib. Krisin başına topladığı Konqres üzvləri Tramp administrasiyasının Azərbaycana qarşı hansı siyasəti yeridəcəyi ilə maraqlanırlar.

Əslində ABŞ Prezidentinin Novruz bayramı münasibətilə İlham Əliyevə göndərdiyi məktubda bu suala cavab verilib: "ABŞ Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünün güclü dəstəkçisi olaraq qalır". Belə görünür ki, Vaşinqtonda Azərbaycanla əməkdaşlıq tendensiyasının güclənməsi Kris Smit və onun kimi ermənipərəstləri narahat edib. Bu səbəbdən də heç şübhəsiz "insan hüquqları" ilə bağlı dinləmələr erməni sponsorlara xidmətdir. Təsadüfi deyil ki, "insan hüquqları" ilə bağlı dinləmələrdə Kris Smit bildirib ki, onların əsas fəaliyyəti Azərbaycan hökumətinin saxladığı "erməni siyasi məhbusları və hərbi əsirləri" azad etməyə çalışmaqdır. Üstəlik, Qarabağda "erməni mədəni irsini qorumalı və ermənilərin Dağlıq Qarabağa qayıtmaq hüququnu diqqətdə saxlamalıdırlar. Müzakirələrə Ruben Vardanyanın xaricdəki vəkili Jared Genser də dəvət olunub. Həmin dinləmələrə bədnam Artak Beqlaryan da gətirilib və o, "Artsax xalqının soyqırımı" haqqında danışıb və Azərbaycana hər cür yardımın dayandırılmasını tələb edib. Əslində Kris Smit bu cür dəvətlərlə ABŞ-ın tanıdığı və dəstəklədiyi Azərbaycanın ərazi bütövlüyünə qarşı açıq hücum etmiş olur.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə "Yeni Müsavat"a bildirdi ki, bu, təxribat xarakterli dinləmələrdir:** "Bayden hakimiyyəti dövründə bu cür dinləmələri adi hala çevirmişdilər. Konqres Administrasiyaya tabe olmayan müstəqil qurumdur, müxtəlif partiyaların nümayəndələrindən təşkil olunur və Prezidentə tabe deyil. O baxımdan indi Tramp zamanında da Konqresdə anti-Azərbaycan dinləmələrinin keçirilməsində Prezidentin rolunu olduğunu söyləmək yanlış olardı. Konqresmenlərə erməni lobbisinin təsir imkanları həmişə olub. Bir sıra konrqesmenlər erməni diasporu ilə sıx işbirliyindədir, ermənilərdən maliyyə alırlar. İndiki dinləmələrdə də məhz bu amilin rolunun olduğu dəqiqdir. Ruben Vardanyanın vəkilinin dəvət olunması isə bu dinləmələrin təşkilində Vardanyanın pullarının rol oynadığını təsdiqləyir. Konqresin komissiyası və Kris Smit erməni pullarının təsiri altına düşərək prezident Trampın Azərbaycanla bağlı mövqeyinə zidd hərəkət edir".

**Hüquq müdafiəçisi qeyd etdi ki, 30 il Azərbaycan xalqının mədəni irsini Qarabağda məhv edən, vandalizmə məruz qoyan ermənilərin müdafiəsinə qalxmaqla həmin konqresmenlər beynəlxalq hüququ da ayaqlar altına atırlar:** "Bu cür dinləmələr qərəzlidir. Azərbaycanda cinayət törətməyən, qanunlarını pozmayan bir nəfər də olsun erməni həbsdə deyil. Hazırda məhkəməsi gedən ermənilərin heç bir hüququ pozulmur. Təqsirləndirilən şəxslər vəkillərlə təmin olunub, prosesdə beynəlxalq təşkilatların nümayəndələrinin də iştirakı təmin olunub. Məhkəmə prosesi tamamilə şəffaf həyata keçirilir və həmin ermənilərin əməllərinə tamamilə qanunlara uyğun qiymət veriləcək. Heç kim düşünməsin ki, hansısa qondarma dinləmələrlə Azərbaycana, separatçıların davam edən məhkəmə prosesinə təsir göstərə biləcək. Azərbaycan ədalətli mövqedədir və qətiyyətli şəkildə özünü qərəzli hücumlardan qorumaq iradəsindədir. İkincisi, məhkəməsi gedən şəxslər özləri törətdikləri cinayətləri etiraf edirlər. Belə bir reallıq ortada olduğu halda Konqresin hansısa komissiyasında və ya özündə keçirilən dinləmələrin, hazırlanan və ya hazırlanacaq hansısa sənədlərin heç bir əhəmiyyəti ola bilməz. Ona görə də bu cür dinləmələrdən çox da narahat olmağa dəyməz".

**Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri Xəyal Başirov da bildirdi ki, ABŞ-da erməni lobbisinin növbəti təxribat kampaniyası başlayıb. Zaman-zaman bu cür kampaniyalara rəhbərlik edən şəxslərin dairəsi də dəyişmir:** "İnsan haqları Komissiyasında Kris Smitin bundan öncəki fəaliyyətinə diqqət etdikdə görürük ki, Menderes kimi bu şəxs də özünün bütün fəaliyyətini erməni lobbisindən yararlanmaqla anti-Azərbaycan kampaniyası aparmağa həsr edib. İnsan hüquqlarını hansısa beynəlxalq tədbirdən öncə və sonraya bölməyin özü qüsurludur. COP29 tədbirinin olub-olmamasını insan haqları ilə əlaqələndirmək məntiqsizlikdir. COP29 kimi mötəbər tədbir zamanı da Krsi Smit kimi şəxslər Azərbaycana qarşı qarayaxma kampaniyasını həyata keçirdilər. Ancaq heç bir nəticə əldə edə bilmədilər. Çünki bu kampaniyanı aparanların mövqeləri kökündən qərəzli idi. İndi isə Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, xalqına qarşı cinayətlər törətmiş erməniləri siyasi məhbus adlandırmaqla qərəzin pik həddinə çatdıqlarını nümayiş etdirirlər. İnsan haqların, xalqların mədəni irsinə hörmət qoyan kimsə bu qədər absurda gedə bilməz. Vardanyanın pulları konqresmenləri həvəsləndirib və növbəti dəfə özlərini biabır etməkdədirlər".

**Ekspertin sözlərinə görə, Azərbaycana qarşı kampaniyada iştirak edən şəxslərə bir neçə sual vermək kifayətdir ki, onların kampaniyası darmadağın olsun:** "Müdafiə etdikləri Ruben Vardanyan, Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan və digərləri harada saxlanılıblar? Onlar saxlanılana qədər həmin ərazidə hansı fəaliyyətlə məşğul olublar? Bu şəxslər BMT-nin və ABŞ-ın Azərbaycan ərazisi olaraq tanıdığı ərazini Azərbaycandan qoparıb özlərinə "dövlət" elan etməmişdilərmi? İndi bu cür adamları siyasi məhbus adlandırmaq və azad edilmələrini tələb etmək hansı beynəlxalq hüquqa sığır? Artak Beqlaryan da adını çəkdiyim ermənilərlə eyni mövqedə, eyni sırada olmuş birisidir. ABŞ-da bəzi konqresmenlər belə çıxır ki, beynəlxalq qanunları, Azərbaycan qanunlarını pozmuş bir şəxslə həmrəylik nümayiş etdirirlər. O halda həmin konqresmenlərin hansısa dinmələr keçirməsi, sənəd qəbul etməsi təbii ki, Azərbaycan tərəfindən rədd edilir və ediləcək. Heç bir nəticəsi olmayacaq dinləmələri nə qədər keçirilərlər keçirsinlər".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 75 (8685) 2 may 2025

# Rusiya "5-ci kolon"ları yenidən dirçəldir - Azərbaycana təhlükə

## Ekspertə görə, yaxın dövrdə Moskvanın Cənubi Qafqazda açıq və təxribatçı fəaliyyəti özünü hiss etdirəcək, Bakı da önləyici tədbirlərə indidən başlamalıdır...

**Rusiya Prezidentinin Administrasiyası Ermənistanda parlament seçkilərinədək rusiyapərəst siyasətçiləri ("beşinci kolon") və informasiya siyasətini gücləndirmək qərarına gəlib. Bu sahə ilə məşğul olmaq Rusiya Prezidenti Administrasiyası rəhbərinin birinci müavini Sergey Kiriyenkoya və ona tabe olan idarələrin əməkdaşlarına həvalə edilib. Bu barədə "Vedomosti" məlumatlı mənbələrə istinadən məlumat yayıb.**

Nəşrin digər mənbəsi qeyd edir ki, Kiriyenkonun Ermənistandakı vəzifəsi Rusiyanın maraqlarını təmin etmək üçün "yumşaq güc"dən istifadə etməkdir. Onun sözlərinə görə, artıq informasiya işlərinə başlanılıb və seçkilərə yaxın "qarşıya yeni vəzifələr qoyulacaq". Həmsöhbət qeyd edib ki, hazırda Ermənistanda əvvəlkilərdən - Serj Sərkisyan və Robert Köçəryandan başqa rusiyayönlü siyasətçi yoxdur. "İndi məsələ seçkilərlə bağlı deyil, Rusiyanın orada olmasıdır"-mənbə deyib.

"Vedomosti" mənbələrinin məlumatına görə, Kiriyenkonun rəhbərliyi altında Prezident Administrasiyası Ermənistanın daxili siyasət idarəsi (rəhbəri Andrey Yarin), sosial proseslərin monitorinqi və təhlili şöbəsi (Aleksandr Xariçev) və ictimai layihələr şöbəsi (Sergey Novikov) üçün cavabdeh olacaq.

Bəs bu kimi hazırlıqlar, "beşinci kolon"ları yenidən dirçəltmək və gücləndirmək qərarları Azərbaycanda da mümkündürmü? Sirr deyil ki, bəzi rusiyapərəstlər, xüsusilə PA-nın sabiq rəhbəri Ramiz Mehdiyev hakimiyyətdən uzaqlaşdırılandan sonra Rusiyanın "beşinci kolon"u xeyli zəifləyib.

**Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə ekspert Fikrət Yusifov "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, Rusiya Cənubi Qafqazın hər üç ölkəsində "5-ci kolon" yaratmağa maraq göstərib:** "Rusiyanın Ukraynada başlatdığı işğalçı müharibədən sonra çoxları düşünürdü ki, Rusiyanın Cənubi Qafqazda mövqeləri zəifləyəcək. Bu, gerçəkdən baş versə də bütövlükdə Rusiyanın bu regionda mövqelərinin əsaslı şəkildə zəiflədiyini demək mümkün deyil. Rusiya dünyanın ondan üz çevirdiyi indiki dönəmdə Cənubi Qafqaz ölkələrində öz mövqelərini möhkəmləndirməyə çalışır. Rusiyanın bu çabalarına baxmayaraq, Cənubi Qafqaz respublikalarında hadisələr heç də onun istədiyi kimi cərəyan etmir. Paşinyan hakimiyyətinin qərbyönlü siyasətini həzm edə bilməyən Rusiya artıq neçə ildir ki, onu devirmək üçün çaba göstərir, lakin istədiyi nəticəni ala bilmir. Çünki erməni toplumunun böyük əksəriyyəti Rusiyanın paslanmış "erməni sevgisinin" arxasında nələrin dayandığını fərq edərək Paşinyan hakimiyyətini dəstəkləyir. İndi Rusiyanın Ermənistandakı "5-ci kolon"unun başında Ermənistanı bir dövlət kimi korrupsiya və rüşvət yuvasına çevirərək məhvə sürükləmiş sərkisyan və köçəryanlar dayanır. Bu simasını itirmişləri isə erməni toplumunun böyük əksəriyyəti oğru kimi tanıyır. Odur ki, Rusiyanın Ermənistanda bu oğrular vasitəsilə nəsə edə biləcəyi ağılabatan deyil.

Gürcüstanda da vəziyyət formaca başqa cür olsa da məzmunca Ermənistanda olduğu kimidir. Bu gün rusiyayönümlü qüvvələr burada hakimiyyət başında olsalar da son hadisələr onların mövqelərinin nə qədər kövrək olduğunu ortaya qoydu.

Azərbaycana gəldikdə isə Azərbaycan hökumətinin ağıllı gedişləri nəticəsində rus qoşunlarının Qarabağdan rədd olub getməsindən sonra buradakı "5-ci kolon" da yetərincə zəiflədi. Lakin bu bizi qətiyyən arxayın etməməlidir. Rusiyanın ölkəmizdəki bağları zəif deyil. Biz ayıq olmalı, baş verən prosesləri yaxından izləməli və düşünülmüş gedişlər etməklə "5-ci kolon"un fəaliyyətini tam nəzarətdə saxlamalıyıq".

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucovun sözlərinə görə, Kreml üçün vazkeçilməz və xüsusi önəm daşıyan regionlardan biri də Cənubi Qafqazdır:** "İki əsrdən çox bu region Rusiyanın şəriksiz nəzarətində olub və özünün mülki kimi yanaşır. Son 3-4 il ərzində müharibəyə və daxili problemlərə başı qarışdığından Cənubi Qafqazda mövqeləri bir qədər zəifləsə, əsas oyunçulardan biri kimi qalır.

Köçəryanın və Sərkisyanın simasında Rusiyaya işləyən siyasilərin yenidən meydan sulamasına imkan yaradılıb. Qeyri-rəsmi məlumatlara əsasən, qatil Köçəryan Moskvada Putinlə görüşərək növbəti ev tapşırıqlarını alıb. Ermənistanda Rusiyanın "5-ci kolonu"nun zəifləməsini düşünmürəm. Əksinə, hesab edirəm ki, Moskvanın ən güclü təsiri Cənubi Qafqaz respublikalarından məhz Ermənistan üzərindədir. Fikrimcə, Ermənistanın guya Qərbə inteqrasiya ilə bağlı yürütdüyü ikibaşlı siyasəti Rusiya ilə hiyləgərcəsinə birgə işlənmiş və müəyyən qədər də uğur qazanmış siyasətdir. Çünki Rusiyanın beynəlxalq sanksiyalardan yayınması üçün Ermənistan əvəzsiz rol oynamaqdadır. Əgər Rusiya Paşinyan iqtidarını revanşistlərlə beynəlxalq siyasi proseslərin gedişinə uyğun olaraq əvəz edərsə, bu, regionda ciddi təhlükələrə və yeni silahlı toqquşmalara gətirib çıxara bilər. Ermənistandan fərqli olaraq Azərbaycan müstəqil siyasət yürüdür və böyük güclərin mübarizəsində alət qismində iştirak etmir, hamı ilə normal, ikitərəfli əməkdaşlığa üstünlük verir".



**Ekspert dedi ki, Rusiya Azərbaycanı da öz təsiri altına salmağa və iradəsini diktə etdirməyə çalışır:** "Rusiya sevdalılarının çoxdankı xiffətidir ki, Azərbaycan Moskvanın əyaləti olsun. Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyevin rəhbərliyi ilə Rusiyanın "5-ci kolonu"nun at oynatdığı dövrlər olub və onlar Azərbaycan dövlətçiliyinə bacardıqları qədər ziyan vurmağa çalışıblar. Vəzifəsindən sui-istifadə edərək o, bütün dövlət və hakimiyyət orqanlarını öz adamlarını yerləşdirmişdi və koordinasiyalı iş görə bilirdilər. Lakin onun vəzifəsindən uzaqlaşdırılmasından sonra "beşinci kolon" zəiflədilsə də zərərsizləşdirilməsi mümkün olmadı. Bu gün də müxtəlif sahələrdə, dövlət və qeyri-dövlət strukturlarında Ramiz Mehdiyev-Əli Həsənov tandeminin adamları, kadrları və trolları maskalanaraq əvvəlki qaydada "xidmətlərini" göstərməkdədir. İş başında və görəvlərində özlərini çox komfortda hiss edirlər. Təəccüblüsü odur ki, Rusiyanın "beşinci kolonu"nun fəal və tanınmış simaları hələ də Azərbaycanda hörmət və izzətə sahibdirlər. Bu heç də xoş olmayan və təhlükəli president yaradır. Odur ki, həmin şəxslər təcili surətdə görəvlərindən uzaqlaşdırılmalı, nəzarətə götürülməlidir ki, fürsət yarandığı təqdirdə çirkli niyyət və məqsədlərini həyata keçirə bilməsin. Göründüyü kimi, Kreml artıq düyməni basıb və buna rəhbərlik də ən yüksək səviyyədə həyata keçirilir. Yaxın dövrdə "beşinci kolon"un Cənubi Qafqazda açıq və təxribatçı fəaliyyəti özünü hiss etdirəcək. Azərbaycan önləyici tədbirlərinə indidən başlamalıdır".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

### Rusiyanın sülh üçün yeni şərtləri

**Rusiya Ukraynadakı münaqişənin sülh yolu ilə həlli üçün bir sıra şərtlər irəli sürüb.**

Modern.az xəbər verir ki, bu barədə Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu BRİCS ölkələrinin yüksək səviyyəli nümayəndələrinin görüşü zamanı bildirib.

Həmin şərtlər sırasına Ukrayna Silahlı Qüvvələrinin Rusiyanın zəbt etdiyi "yeni əraziləri"ndən çıxarılması və Kiyevin NATO-ya üzv olmaqdan imtina etməsi də daxildir.

"Ukrayna böhranının həlli ilə bağlı Rusiyanın təklifləri hamıya məlumdur: Ukrayna Silahlı Qüvvələrinin Rusiyanın yeni bölgələrindən çıxarılması, Kiyevin NATO-ya üzv olmaq üçün müraciət etməkdən imtinası, Ukraynanın demilitarizasiyası, rusdilli vətəndaşların hüquqlarının təmin edilməsi...", - Şoyqu bildirib.

O, həmçinin vurğulayıb ki, Moskvanın Ukraynanın danışıqlara hazır olması ilə bağlı heç bir illüziyası yoxdur. Lakin qeyd edib ki, Rusiya və ABŞ münaqişənin həlli yollarını tapmaq üçün birgə iş perspektivlərini artıq açıqlayıb.

Şoyqunun sözlərinə görə, Avropa, əksinə, qarşıdurmanın uzadılmasında maraqlıdır və əldə olunan razılaşmaları yerinə yetirməmək üçün Kiyevə təzyiq göstərir.

Təhlükəsizlik Şurasının katibi Moskvanın Avropa qoşunlarının Ukrayna ərazisinə yerləşdirilməsini qəbuledilməz hesab etdiyinə də diqqət çəkib.

Yeni MÜSAVAT
N 75 (8685) 2 may 2025

# Deputatlar razılıq verdi - baş prokuror daha beş il postunda qalır

## Qanunvericiliyə daha bir dəyişiklik: 500 manatdan 1000 manata qədər cərimə ediləcəklər



**Mayın 1-də Milli Məclisin növbəti plenar iclası keçirildi. Spiker Sahibə Qafarova iclası açıq elan etdikdən sonra gündəlikdəki məsələlərin müzakirəsinə keçildi. Sədr bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən baş prokuror vəzifəsinə təyin olunması üçün Kamran Əliyevin namizədliyi parlamentə təqdim olunub.**

Bundan sonra iclasda iştirak edən Kamran Əliyevi salamlayan S.Qafarova sözü Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə verdi. Komitə sədri Azərbaycan Respublikası Milli Məclisinin Qərarı haqqında məlumat verdi, həmçinin namizədliyi irəli sürülən K.Əliyevlə bağlı yüksək fikirlər söylədi. “Kamran Əliyevin baş prokurorluğu dövründə düzgün kadr siyasəti yürüdülüb. Hazırda prokurorluq işçilərinin 90 faizi gənc peşəkarlardır”, deyən komitə sədri bildirdi ki, Kamran Əliyevin səlahiyyəti müddətində islahatlar həyata keçirilib, beynəlxalq əlaqələrin dərinləşdirilməsinə nail olunub. “Düzgün kadr siyasəti həyata keçirilib. Hazırda prokurorluq işçilərinin 90 faizi gənc, amma professional kadrlardır. Bu dövrdə prokurorluqla digər güc strukturları arasında güclü əlaqə mövcud olub. Bu isə ümumi işə böyük töhfə verib. Bir sıra hallarda xarici dairələrdə Baş prokurorluğun separatçılığa qətiyyətli mövqeyini şübhə altına almağa çalışırlar. Media və ictimaiyyətin isə buna qarşı fikri mövcuddur. İstintaq prosesində əldə olunmuş təkzibolunmaz faktlar seperatçıların öz əməlləri ilə bağlı etirafına səbəb olub. Kamran müəllim prokurorluq işçisi kimi dövlətçilik və milli maraqlara sadiq olub”, - Ə.Hüseynli daha sonra bildirdi. O qeyd etdi ki, qısa zaman ərzində işğaldan azad edilmiş ərazilərdə prokurorluğun fəaliyyəti təşkil edilib. Xankəndidə möhtəşəm prokurorluq binası açılıb: “Milli Məclislə Baş Prokurorluğun əməkdaşlığı da yüksək səviyyədə olub”.

Komitə sədri K.Əliyevin prokurorluğa rəhbərlik etdiyi dövrdə korrupsiyaya qarşı aparılan mübarizədən, digər işlərdən bəhs edib. Qarabağ separatçıları üzərində aparılan məhkəmə istintaqını prokurorluğun mükəmməl fəaliyyətinin bariz nümunəsi olaraq xatırlatdı.

Deputatların təklifi ilə müzakirələrə ehtiyac duyulmadan K.Əliyevin baş prokuror təyin olunması ilə bağlı qərar layihəsi səsə qoyuldu və 111 lehinə, 1 bitərəf olmaqla təsdiqləndi.

**Dövlət başçısının və parlamentin etimadını qazanan Kamran Əliyev parlament tribunasından bunları söylədi**: “Mənə yenidən etimadla bağlı Ali Baş Komandan, Prezident İlham Əliyevə özüm və porokurorluq orqanları əməkdaşları adından dərin təşəkkürümü bildirirəm”. O, namizədliyini dəstəklədikləri üçün deputatlara da təşəkkürünü bildirdi: “Respublikamızın bugünkü uğurlarının əsasını Ümumilli Heydər Əliyevin uzaqgörən siyasəti təşkil etməkdədir. Məhz onun yaratdığı strategiyanın Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi sayəsində 30 ildən çox müddətdə işğal altında olan ərazilər azad edildi, bütün ərazilərdə suverenliyimiz bərpa edildi”. **Bildirib ki, işğaldan azad edilmiş ərazilərdə uğurlu bərpa işlərinə başlanıb, artıq Qarabağ və Şərqi Zəngəzura həyat qayıdıb:** “Yeni prokurorluqlar - Kəlbəcər, Ağdam, Xankəndi şəhər prokurorları təsis edilib. Siyasi iradədən qaynaqlanan hazırda davam etdirilən islahatlar Azərbaycan prokurorluğu qarşısında yeni və mühüm vəzifələr qoyur. Bunlardan birincisi, dövlətçiliyin daxili və xarici təhdidlərdən mühafizəsidir”.

İclasda Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi müzakirəyə çıxarılaraq qəbul edildi. İclasda çıxış edən **deputat Razi Nurullayev** “Fövqəladə Hallar Nazirliyinin 20 illiyi yubiley medalı”nın təsis edilməsini dəstəkləyib: “Bunu fakt üzərində izah etmək istərdim. Güclü yağışlar Azərbaycanda ciddi fəsadlar törətdi. Hökumət, dövlətimiz sağ olsun ki, müəyyən addımlar atıldı və buna görə zəhməti keçən hər kəsə təşəkkür edirəm. Xüsusilə Daxili İşlər Nazirliyinin əməkdaşları, Fövqəladə Hallar Nazirliyi gecə-gündüz çalışdılar və bunu mütləq vurğulamalıyam”.

**Ardınca R.Nurullayev tənqidi fikirlər səsləndirdi:** “Bununla bərabər deməliyəm ki, bu gün də evi suyun içində qalan və qapısı döyülməyən vətəndaşlar var. Təəssüflə deməliyəm ki, heç də aidiyyəti olan dövlət qurumları işinin öhdəsindən gəlməyib, zamanında ciddi həyəcan siqnalı da verməyiblər. Buradan Fövqəladə Hallar Nazirliyinə təşəkkürümü bildirmək istəyirəm. Cənab nazirə, müavinlərinə, bütün kollektivə "sağ ol" deyirəm. Yalnız onlar telefon zənglərimə cavab verib operativ qərar qəbul etdilər. Gözümüzün qabağında insanları xilas etdilər, neçə günlər xidməti maşınlarda gecələdilər. Amma aidiyyəti olan orqanların bir çoxunun laqeydliyinin şahidi olduq. Çox təəssüf. Amma bilsinlər ki, onlar parlamentdə olan zaman çətin suallarla üzləşməli olacaqlar. Hər bir dövlət qurumu üzərinə düşən vəzifəni vicdanla yerinə yetirməlidir. Bir daha FHN-in bütün kollektivinə dərin təşəkkürümü bildirirəm və əminəm ki, onlar ən yüksək medal və təltiflərə layiqdirlər".

**Milli Məclisin iclasında çıxış edən deputat Elçin Mirzəbəyli bir sıra vacib məqamlara diqqət çəkdi. Qeyd etdi ki, “İcra haqqında” Qanunun 231.4-cü maddəsinə təklif edilən dəyişiklikdə “Qətnamə icrasına möhlət verilməsi və ya onun hissə-hissə icra edilməsi, qətnamənin icra üsulunun və qaydasının dəyişdirilməsi icra üzrə icraatın dayandırılması, borclu fiziki şəxsin, borclu hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması, borclunun əmlakı üzərinə həbs qoyulması barədə məhkəmə qərardadından şikayət verilə biləcəyi qeyd olunur**: "Hesab edək ki, borclu şəxsin məhkəmə qərarından bir gün sonra ailə üzvlərindən biri ölkədən xaricdə vəfat edib və o, doğmasının dəfnində iştirak etmək, yaxud cənazəsini ölkəyə gətirmək üçün ölkə xaricinə getməlidir. Bu halda, yəni istisna hal kimi hansı hüquqi prosedurlar və necə həyata keçirilməlidir?

Ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması məsələsində qanunvericiliyin istisna halları nəzərə alması son dərəcə vacibdir.

Cinayət Məcəlləsinin 78-ci maddəsinə görə, şəxs ağır xəstəliyə düçar olduqda o, cəzadan azad oluna bilər. Yəni burada söhbət cinayətdə ittiham olunan, yaxud cinayət törətdiyi sübuta yetirilmiş şəxsin cəzadan azad olunmasından gedir. Düşünürəm ki, əgər cinayət törətmiş şəxsə münasibətdə humanizm nümayiş etdirilirsə, borclunun müstəsna hallarda, təcili ehtiyac duyulduqda ölkəni tərk etməsinə imkan yaradılmaması hüququn fəlsəfəsinə ziddir".

**Deputat Vüqar Bayramov Mülki Prosessual Məcəlləyə dəyişikliklərdən bəhs edərək müvafiq maddədə borclu anlayışının dəqiqləşdirildiyini dedi:** “Bununla yanaşı, bu anlayışın daha da dəqiqləşdirilməsi, o cümlədən fiziki və hüquqi şəxslər üzrə meyarların müəyyənləşdirilməsi məqsədəuyğun olardı. Belə ki, bir sıra ölkələrin qanunvericiliyində olduğu kimi fiziki şəxslər üzrə ölkədən çıxış hüququnun məhdudlaşdırılması zamanı kredit borcu üzrə limitlər tətbiq edilə və sözügedən məcəllədə öz əksini tapa bilər. Çünki kredit portfeli üzrə artım eyni zamanda istehlak kreditlərində də özünü göstərir. 2024-cü ilin yekunlarında istehlak kreditlərinin həcmi 2023-cü illə müqayisədə 6 milyard 937 milyon manatdan 8 milyard 445 milyon manatadək yüksəlib. Hazırda 3 milyondan çox vətəndaşımızın banklara istehlak kreditləri üzrə borcu var. Rəsmi statistika göstərir ki, banklardan borclanan vətəndaşlarımızın sayı artır”.

**V.Bayramov deyib ki, bütün bunlarla yanaşı, vaxtı keçmiş kreditlərin həcmi 2024-cü ilin sonuna nisbətən bu ilin ilk rübündə 449.1 milyon manatdan 481.6 milyon manatadək yüksəlib:** “Bu, o deməkdir ki, son aylar problemli kreditlərin həcmi yüksəlməkdədir və bu daha çox borclu deməkdir. Oxşar vəziyyət qeyri-işlək kreditlər üzrə müşahidə olunur. Belə ki, 2024-cü il ərzində qeyri-işlək portfelin həcmi mütləq ifadədə 6.7 faiz və ya 41 milyon manat artaraq 655 milyon manat təşkil etmişdir. Bu məbləğin 246 milyon manatı istehlak kreditləridir, yəni fiziki şəxslərin payına düşür. 375 milyon manatlıq biznes kreditləri isə qeyri-işləkdir. Mərkəzi Bankın məlumatına görə, iqtisadi fəal əhali üzrə, adambaşına 13.8 min manata bank borcu var. Əgər 5 il öncə əhalinin borc yükünün sərəncamda qalan gəlirlərinə nisbəti 11.5 faiz idisə, bu göstərici ötən ilin sonunda 18 faizədək yüksəlib. Göründüyü kimi, həm problemli kreditlərin, həm də qeyri-işlək kreditlərin həcmlərində artımlar var. Bu baxımdan, nisbətən az kredit borcu olan vətəndaşlarımız üçün bu qadağaların müəyyənləşdirilməsini tövsiyə olunandır. Məsələn, cəmi 200 manatadək kredit borcu olan vətəndaşların ölkədən çıxışının məhdudlaşdırılmasının problemli kreditlərin həcminin azalmasına səbəb olacağı inandırıcı deyil. Əksinə, bu sahədə təşviq kiçik borcların daha qısa zamanda qaytarılmasına səbəb ola bilər. O baxımdan, 231-ci maddədə fiziki şəxs olan borclular üzrə minimumların müəyyənləşdirilməsini təklif edərdim. Hazırda 27 milyard 877 milyon manat kredit portfelini olduğunu nəzərə alsaq, qanun layihəsində hüququ şəxslərin dairəsinin genişləndirilməsi məqsədəuyğun olardı. Yəni hüquqi şəxsin icra orqanının rəhbəri ilə yanaşı, təşkilati formasına uyğun olaraq təsnifləşdirmənin aparılması və qərarların qəbulunda iştirakı olanların tam əhatə olunması məqsədəuyğun olardı. Məsələn, səhmdar cəmiyyətlərində yalnız hüquqi şəxsin icra orqanının rəhbəri deyil, idarə heyətinin üzvləri ayrıca qeyd oluna bilər. Çünki qərarlar idarə heyəti tərəfindən verilir”.

İclasda İnzibati Xətalar Məcəlləsində, “İcra məmurları haqqında”, “İcra haqqında”, “İpoteka haqqında” və “Nağdsız hesablaşmalar haqqında” qanunlara dəyişikliklər müzakirəyə çıxarıldı.

Milli Məclisin növbəti iclası 8 mayda keçiriləcək.

❑ **Elşad PAŞASOY, “Yeni Müsavat”**

# Azərbaycanın "ARKA sokakları"nda nə baş verir?

## İki xalq artisti Kino Agentliyinə rəhbər təyin olunan Rəşad Əzizovu tanımır; "Əgər məsləhət olunub, o vəzifəyə təyin olunubsa, demək ki..."

**Prezident İlham Əliyevin 2022-ci ilin aprelində imzaladığı müvafiq sərəncamla Kino Agentliyi - ARKA yaradıldı. Agentlik Azərbaycanda kinematoqrafiyanın inkişafının, o cümlədən yerli və müştərək kino istehsalının dəstəklənməsi, kino mədəniyyətinin təbliğinin təşkili ilə məşğul olacaq publik hüquqi şəxsdir.**

Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr, onun iki müavini daxil olmaqla 3 üzvdən ibarət Müşahidə Şurası yaradılıb. Agentliyin fəaliyyətinə rəhbərliyi baş direktor həyata keçirir. Fərman milli kinematoqrafiyamızın və yayım infrastrukturunun müasirləşdirilməsi üçün geniş imkanlar açıb. Həmin fərmandan sonra ölkəmizin kino təsərrüfatında bir sıra islahat və yeniliklərin həyata keçirilməsinə başlanılıb.

Əməkdar incəsənət xadimi, Kino Agentliyinin baş direktoru vəzifəsini icra edən Orxan Fikrətoğlu bir müddət əvvəl nazirin müşaviri təyin edilib. Kino ictimaiyyəti bu görəvin kimə həvalə olunacağı ilə bağlı müxtəlif fikirlər səsləndirirdilər. Xalq artisti Rasim Balayev "Agentlik nazirliyin tabeliyindədir, ona görə də bu vəzifəyə kimin təyin olunacağını yalnız onlar bilir. Biz qarışa bilmirik. Kadr məsələsinə onlar baxırlar. Onlar bizim fikrimizlə oturub-durmurlar ki..." deyib. "Orada kimi görmək istəyərdiniz" sualına isə Xalq artisti belə cavab verib: "Həm kinonu bilsin, həm bu sənətə məhəbbəti olsun, başı çıxsın, obyektiv olsun.. Mən belə adam bilmirəm. Ətrafımda belə adam yoxdur. Burada peşəkarlıq da şərtdir. Amma əsas obyektiv insan, rejissorlar arasında düzgün bölgü apara bilən kadr olmalıdır".

Nəhayət, necə deyərlər, "arka sokaklardakı" müzakirələrdən sonra ARKA-da təyinat gerçəkləşib. Kino Agentliyinin baş direktoru vəzifəsinə Rəşad Əzizov təyinat alıb.

Rəşad Fikrət oğlu Əzizov 1980-ci ildə Bakı şəhərində dövlət qulluqçusu ailəsində anadan olub. 1996-cı ildə Bakı şəhəri 160 nömrəli orta məktəbi əla qiymətlərlə bitirib, həmin ildə Bakı Dövlət Universitetinin Hüquqşünaslıq fakültəsinə daxil olub. 2000-ci ildə təhsilini fərqlənmə ilə başa vuraraq bakalavr, 2002-ci ildə isə dövlət hüquqi ixtisası üzrə magistr dərəcəsi alıb.

2008-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin Aparatında İnformasiya məsələləri sektorunun müdiri, 2010-2018-ci illərdə isə Avropa ilə inteqrasiya sektorunun müdiri kimi işləyib və ona dövlət qulluğunun baş müşaviri dərəcəsi verilib. 2016-cı ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunub.

2018-ci ildən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin İnnovasiya və rəqəmsal inkişaf şöbəsinin müdiridir. 2007-ci ildə Sankt-Peterburq Dövlət Universitetində "Hüquqi tənzimləmə: informasiya aspekti" mövzusunda dissertasiya işini müdafiə edərək hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsini, 2017-ci ildə isə həmin universitetdə "İnternet şəbəkəsində tənzimləmənin müqayisəli hüquqi təhlili" mövzusunda doktorluq işini müdafiə edərək hüquq elmləri doktoru elmi dərəcəsini alıb. 2 kitab ("Elektron hüququn əsasları" rus və Azərbaycan dillərində), 1 monoqrafiya ("İnternet şəbəkəsində tənzimləmənin müqayisəli hüquqi təhlili" rus və Azərbaycan dillərində), Azərbaycan, Rusiya Federasiya, Ukrayna, Litvanın elmi jurnallarında dərc olunmuş 30-dan çox elmi məqalənin müəllifidir.

Həmçinin "Hüquq və internet", "Hüquqi məsələlər və iqtisadiyyatda innovasiya" mövzusunda bir sıra beynəlxalq elmi konfransların iştirakçısı və məruzəçisi olub. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (informasiya və elektron hüquq, innovasiya və rəqəmsal inkişaf fənləri üzrə) müəllim kimi çalışıb. 2013-cü ilin oktyabrından "Azərbaycan Şən və Hazırcavablar Klubu"nun rəhbəridir.

2 oğul və 1 qız atasıdır.

Bəs kino xadimləri yeni təyinatı necə dəyərləndirir, hansı gözləntiləri var?





Rəşad Əzizov

**Xalq artisti Rasim Balayev bununla bağlı "Yeni Müsavat"a açıqlamasında bir daha xatırladıb ki, təyinata onların qarışmaq səlahiyyəti yoxdur:** "Mədəniyyət Nazirliyi özü Rəşad Əzizovu təyin edib. Görünür ki, nazirlik nəyəsə ümid edir ki, Rəşad Əzizovu o vəzifəyə gətirib. Şəxsən mən onu tanımıram. Bilmirəm, görək də, zaman hər şeyi göstərəcək. O ki qaldı kinomuzun indiki vəziyyətinə, çox təəssüf ki, indi yaxşı yazanlar, yəni yaxşı ssenaristlərimiz yoxdur. Yaxşı ssenarilər, rejissorlar olmalıdır. Çox şükür ki, hökumət nə qədər lazımdırsa, kinoya pul ayırır. Amma bu, işin bir tərəfidir. Əsas tərəfi də budur ki, bu maliyyə düzgün istifadə edilib, yaxşı filmlər çəkilsin".

**Xalq artisti, rejissor-aktyor Şeyx Əbdül Mahmudov da yeni təyin olunan Rəşad Əzizov barəsində məlumatı olmadığını dedi:** "Mən Rəşad Əzizovu tanımıram. Amma xoş gəlib, səfa gətirib. Əgər məsləhət olunub, o vəzifəyə təyin olunubsa, demək ki, müəyyən ümidlər var. Yəqin ki, Rəşad Əzizov Bədii Şuranın üzvü olaraq bizimlə görüşəcək və mənim ona ünvanlayacağım çoxsaylı suallarım olacaq. Yalnız onunla üzbəüz danışdıqdan sonra deyə bilərəm ki, bizi yaxşı, yoxsa pis bir vəziyyət gözləyir. Onu indidən söyləyə bilərəm ki, əgər bizə böyük mənəvi dəyərlər yaşadan, kino sahəsində zəngin bir irs qoymuş kino mədəniyyətimizi bərpa edib, onu doğru istiqamətdə inkişaf etdirmək istəyiriksə, ilk növbədə kinonu daxildən bilən, bu sahədə səriştəsi və peşəkarlığı olan şəxslərlə məsləhətləşmək vacibdir. Çox təəssüf ki, hazırda kino sahəsinə rəhbərlik edənlər arasında 40-50 il kinostudiyanın qapısından belə keçməyən, orada aparılan çəkilişlərdən, texnologiyasından, elmi və sənətindən anlayışı olmayan insanlar var. Onlar bu gün kino haqqında fikir bildirir, danışırlar. Bu, doğrudan da gülünc və düşündürücüdür.

Məsələn, Şəfiqə Məmmədova əslində teatr adamıdır, kino mühitinə aidiyyəti azdır. Gedib Teatr Xadimləri İttifaqına rəhbərlik etsə, daha uyğun olar. Sonuncu dəfə 1997-ci ildə kinostudiyanın qapısından içəri daxil olub, artıq 28 ildir ki, kinostudiyanın yolunu tanımır, amma bu gün kino adından çıxış edir. Bu, reallıqla uzlaşmır.

Başqa bir məsələ də odur ki, ümumiyyətlə, bu gün Kino İttifaqı kimə lazımdır? Hesab edirəm ki, bu qurum artıq ləğv edilməlidir. Boş-bekar adamlar ora toplaşıb, nə dedikləri bilinmir. Kinostudiya isə qalıb bir kənarda, heç kim onun real durumu ilə maraqlanmır. Rasim Balayev və Şəfiqə Məmmədova isə sadəcə pafoslu çıxışlar edirlər, amma kinonun taleyi, onun gələcəyi onları, görünür, o qədər də maraqlandırmır".

❑ Xalidə GƏRAY,
"Yeni Müsavat"



## "Əbu Müslüm" məscidinin acınacaqlı vəziyyəti

**Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti Qubanın Qrız kəndində yerləşən "Əbu Müslüm" məscidinin acınacaqlı vəziyyəti ilə bağlı tarixçi alim Elnur Nəciyevə məktub ünvanlayıb.**

Demokrat.az- xəbər verir ki, məktubda deyilir:

"Hörmətli Elnur Nəciyev!

Sizin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarı ilə yerli əhəmiyyətli memarlıq abidəsi kimi dövlət qeydiyyatına alınmış Quba rayon, Qrız kəndində yerləşən "Əbu Müslüm" məscidinin (4664 inventar nömrəli) təmir-bərpa olunmasına köməklik edilməsi barədə 11.04.2025-ci il tarixli Azərbaycan Respublikasının Milli Məclisinə müraciətinizə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətində baxılmışdır.

Sözügedən abidənin təmir-bərpasına Mədəniyyət Nazirliyi üzrə növbəti illər ərzində dövlət büdcəsindən dövlət əsaslı vəsait qoyuluşu hesabına tikintisi nəzərdə tutulmuş layihələrin siyahısının tərtibatı zamanı baxılacaqdır.

Eyni zamanda bildiririk ki, "Tarix və mədəniyyət abidələrinin qorunması" haqqında Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə əsasən abidələrin qorunması, öyrənilməsi, bərpası və konservasiyası dövlət büdcəsindən və yerli büdcələrdən ayrılan vəsaitlər, fiziki, hüquqi şəxslərin maliyyə yardımları və ianələri hesabına maliyyələşdirilir".

## Azərbaycanda yeni medal təsis edilib

**Azərbaycanda yeni medal təsis edilir. Milli Məclisin son iclasında "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi müzakirəyə çıxarılıb.**

Müzakirələrdən sonra sənəd səsverməyə qoyularaq qəbul edilib.

YENİ MÜSAVAT
N 75 (8685) 2 may 2025

# Kommunal ödənişlərdə müəmmalı qərar

## İşıq pulunu ödəmək üçün əvvəlcə zibilhaqqını bağlamalısan?

**Xəbər verdiyimiz kimi, "Kommunal xidmətlərlə bağlı Vahid İnformasiya Sisteminin yaradılması və aidiyyəti sistemlərin inteqrasiyası üzrə 2025-ci il üçün Yol Xəritəsi" təsdiqlənib. Mayın 1-nə qədər kommunal qurumlar üzrə vahid abunəçi kodu mexanizmi yaradılması və Kommunal Xidmətlər Vahid İnformasiya Sisteminin formalaşdırılması ilə bağlı konseptual sənədin hazırlanması planlaşdırılır.**

Sistemin yaradılmasına rəhbərliyi həyat keçirən İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi tərəfindən bu ilin sonuna qədər layihə ilə bağlı əsas mərhələlərin tamamlanması nəzərdə tutulur.

Kommunal xidmətlərlə bağlı vahid informasiya sistemi vətəndaşların elektrik, qaz, su, internet və digər kommunal xidmətlərlə əlaqəli məlumatları bir yerdə izləməsinə, ödəniş etməsinə və problemləri həll etməsinə imkan verən rəqəmsal platformadır. Amma bu, həm də yeni texniki və hüquqi mexanizmlər deməkdir. Burada hansısa ödəmədən yayınma çətin olacaq. Çünki dövlət səni kommunal haqqa görə vahid borclu kimi tanıyacaq. Bu çərçivədə bir neçə sual aktuallaşır. Məsələn, bir vətəndaş işıq pulunu 20, qaz pulunu isə 10 gün gecikdirib. Bu halda borcun ödənilməsi zamanı hansı xidmətə üstünlük veriləcək? Sistem bu ardıcıllığı necə müəyyənləşdirəcək? Yaxud əgər vətəndaş zibil daşıma və ya istilik xidmətlərinə görə borcludursa, amma işıq pulunu ödəmək istəyirsə, buna icazə veriləcəkmi, yoxsa əvvəlcə digər borcları qapamalıdır? Bu mexanizmin necə işləyəcəyi ilə bağlı ekspertlərə müraciət etdik.

**İqtisadçı Natiq Cəfərli deyir ki, yeni sistemlə bağlı kifayət qədər publik açıqlamalar yoxdur. Rəsmi qurumlar buna aydınlıq gətirməlidir:** "Hazırkı mövcud qanunvericiliyə görə kommunal xidmət göstərən dövlət şirkətləri ödənişin vaxtı keçdikdə xəbərdarlıq edirlər, ondan 10 gün sonra isə kommunal xidmətləri məhdudlaşdırırlar. Yeni yaradılmış quruma gəldikdə isə qanunvericilik bazası dəyişməyibsə, necə işləyəcəkləri sual doğurur. Nazirlər Kabinetinin yeni qaydaları təqdim edilməli və vətəndaş həmin qaydalara uyğun öz xərclərini ödəməlidir. Hazırda müvafiq qaydalara görə təbii inhisarçıların əlində böyük səlahiyyət var. Yeri gəlmişkən, belə bir yeni sistem yaradılırsa, vətəndaşlarla fərdi müqavilələrin bağlanması prinsipinə də keçmək lazımdır. Bir vətəndaş və istehlakçı kimi məsuliyyətimiz var, amma qarşı tərəfin heç bir məsuliyyəti yoxdur. Biz pulu ödəyə bilmiriksə və yaxud da gecikdiririksə, bizim məsuliyyət yaranır. Zamanla göstərilən xidmətin keyfiyyəti ilə bağlı problem yaşanırsa və kəsintilər olursa, qarşı tərəf buna görə məsuliyyət daşıyırmı? Təəssüf ki, yox. Çünki Azərbaycanda kommunal xidmətlərlə bağlı fərdi müqavilələr prinsipi yoxdur. Yaxşı olardı ki, bu, qarşılıqlı olsun, fərdi müqavilələr prinsipinə keçirilsin. Vətəndaş nə qədər məsuliyyət daşıyırsa, əlaqədar dövlət şirkətləri də eyni qaydada vətəndaşın qarşısında məsuliyyət daşısın. Keyfiyyətlə bağlı problem olanda, yaxud da onların fəaliyyətinə görə vətəndaşa ziyan dəyəndə şirkətlər hansı məsuliyyəti daşıyırlar? İndiki qanunvericilikdə yeganə yol məhkəmə ilə hansısa kompensasiya almaqdır. Bu, nadir hadisədir. Demək olar ki, vətəndaşlar heç vaxt bundan istifadə etmirlər.

Yeni sistem məsələsi maraqlı təşəbbüsdür, lakin hələ tamamlanmasına ehtiyac var. Kifayət qədər ciddi qanunvericilik bazasının və Nazirlər Kabinetinin qaydalarının dəyişdirilməsinə, fərdi müqavilələr məsələsinin gündəmə gəlməsinə ehtiyac var. Vətəndaş məsuliyyəti tək daşıya bilməz. Əlaqədar dövlət qurumları da bu məsələdə aktivlik göstərməlidir".




**Ekspert dedi ki, yeni sistem məntiqlə eyni mərkəzdən effektiv idarəetmə mexanizmlərinin yaradılmasına cəhddir:** "Bu, pərakəndəliyin aradan qalxmasına səbəb olacaq. Lakin effektli olması üçün qaydaların şəffaf şəkildə elan olunması ehtiyac var".

**İnformasiya texnologiyaları üzrə mütəxəssis Elvin Abbasov kommunal xidmətlərin bir platformadan idarə olunmasını müsbət qiymətləndirib:** "Kommunal xidmətlərin vahid formada bir platformadan idarə olunması o deməkdir ki, Azərbaycanda bu sahədə dövlət qurumlarının vətəndaşla münasibəti bir nöqtədə rəqəmsal formada tərtib olunacaq. Vətəndaş öz məlumatları və borcu ilə hər an rahatlıqla tanışa biləcək, ödənişini edəcək. Ödəniş bir dəfəyə və ya mərhələli ola bilər. Vahid kod yazılanda hər bir sərfiyyat üzrə ayrı-ayrı borcları görəcək. Vətəndaşın hər hansısa etirazı varsa, sistem üzərindən bildiriş göndərəcək. Vətəndaşın bütün məlumatları şəffaf olacaq. Buna qədər vətəndaşın qaz borcu bir ünvana, işıq borcu isə digər ünvana göndərilirdisə, indi buna bənzər problemlər aradan qalxacaq. Sistemdə şəxslərin adları ilə bağlı olan yanlışlıqlar da aradan qaldırılacaq, məlumatlar dürüstləşəcək. Növbəti mərhələdə ağıllı sayğaclardan istifadə olunacaq və müxtəlif dövrlərdə oradan sərfiyyatlar avtomatik olaraq yenilənəcək. Məsələn, ağıllı qaz sayğacı məlumatı özü birbaşa sistemə ötürəcək".

**İqtisadçı Elçin Rəşidov açıqlamasında bildirib ki, Vahid İnformasiya Sisteminin yaradılması mütərəqqi addımdır. Onun sözlərinə görə, bu sistemlə vətəndaşın bütün borcları bir nöqtədə toplanır və ödəniş işləri asanlaşır:** "Kommunal xidmətlərin vətəndaşlara çatdırılmasının son mərhələsi özəlləşdirilməlidir. Yeni sistem bunun qarşısını alacaqsa, o zaman artıq mütərəqqi addım olmayacaq. Vətəndaş toplam borcunun bir hissəsini ödəyəcəksə, ödənilən məbləğin hansı borca yönələcəyi şirkətlərin arasında olan məsələdir. Əslində vətəndaşın borcu qurumlar arasında proporsional bölünə bilər. Digər qayda isə belə ola bilər ki, ilk borcu hansı quruma yaranıbsa, onun borcu çıxılsın. Yaxud da son borc hansı xidmətə görə yaranıbsa, onun ödənişinin edilməsi ilə başlaya bilər. Üç qaydadan birinin təyin edilməsi zəruridir. Çünki qaydalar müəyyən olunandan sonra özəl şirkətlər rahatlıqla həmin sistemə qoşula bilərlər.

Vətəndaşlar bəzi kommunal xidmətlər üzrə smart tipli sayğaclardan istifadə edirlər. Bu zaman ödəniş öncədən tələb olunur. Buna görə də borc yaranmır. Əksinə, şirkətin vətəndaş qarşısında öhdəliyi yaranır. Elə etmək lazımdır ki, Vahid İnformasiya Sistemi smart sistemlərlə uyğunlaşa bilsin. Smart sistem borc yaratmır, lazım gələrsə, digərləri də smart sistemə keçə bilər. Vahid İnformasiya Sisteminin çatışmayan cəhətlərindən biri də o olacaq ki, digərləri kimi onun da qurumu olacaq. Həmin qurum ölkə iqtisadiyyatı üçün əlavə fiskal yük yaradacaq. Bu da iqtisadiyyat üçün itki deməkdir".

**İT mütəxəssisi Fərhad Mirəliyev deyir ki, ödənişlər qurumların bank hesablarına ediləcək:** "Ödənişi vətəndaş hansı istiqamətdə ödəyirsə, həmin xidmətin bank hesabına oturacaq. Ödəniş zamanı kommunal xidməti seçmə imkanınız olacaq. Məsələn, işığa görə ödəniş edirsinizsə, bu, su pulunun balansına yazıla bilməz. Hər kommunal xidmətin öz hesabı olacaq. Bütün ödənişlər birgə olsa, qurumların balansı bir-birinə qarışar. Xidmətlər vahid portalda birləşdiriləcək və mərkəzləşdirilmiş şəkildə vətəndaşa təqdim ediləcək".

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**

# Azərbaycanda maaşlarla bağlı ciddi yenilik

## Həm aylıq, həm də saatlıq əməkhaqqı sistemlərinin eyni zamanda tətbiqi uyğun görülüb...

**Cari ilin 1 iyun tarixinə qədər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən saatlıq minimum əməkhaqqının tətbiqi ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi planlaşdırılır.**

Nazirliyin mətbuat xidməti xəbər verir ki, saatlıq minimum əməkhaqqı ilə bağlı təkliflər hazırda aidiyyəti qurumlarla razılaşdırılma mərhələsindədir. "Layihə ilə bağlı yenilik olduğu təqdirdə, bu barədə ictimaiyyətə məlumat veriləcəkdir", - açıqlamada vurğulanıb. ƏƏSMN-in Əmək siyasəti şöbəsinin müdiri Fuad Heydərov Modern.az-a bildirib ki, nazirlik tərəfindən mütəmadi olaraq əmək qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində qanunvericiliyə dəyişiklik layihələri hazırlanır.

Şöbə müdirinin sözlərinə görə, aparılmış təhlillər nəticəsində ölkəmizdə həm aylıq, həm də saatlıq əməkhaqqı sistemlərinin eyni zamanda tətbiqi uyğun görülüb.

"Aparılmış təhlillər nəticəsində müəyyən etdik ki, ölkəmizdə həm aylıq, həm də saatlıq əməkhaqqı sistemlərinin eyni zamanda tətbiqinin üzərində dursaq, daha yaxşı olar. Layihə bunun üzərində hazırlanıb. Bunun bütün işə götürənlərə şamil olunması nəzərdə tutulmur. Burada yalnız qısa müddətli və həftəlik iş vaxtı normasının yarısından az işləyən şəxslərə layiqli əməyin təyin edilməsi nəzərdə tutulur. Bərabər, yüksək əməkhaqqının təmin edilməsi məqsədilə saatlıq əməkhaqqı sisteminin yalnız dediyim kontingentdən olan şəxslərə tətbiq olunması nəzərdə tutulur. Burada sahələri indidən demək çətindir, amma belə düşünmək olar ki, bu qısamüddətli, bir aydan daha aşağı bağlanan müqavilələr, yaxud həftəlik iş vaxtı normasından az işləmə hansı sahələrdə tətbiq olunursa, aid edilə bilər. Misal olaraq mövsümi kənd təsərrüfatında işə cəlb olunan şəxslər, yaxud restoranlardakı ofisiantlar. Hansı ki, müəyyən işi icra etdikdən sonra iş bitmiş sayılır. Bu həm işəgötürənlərdə, həm də işçilərdə əmək münasibətlərində çevikliyi artıracaq. Eyni zamanda əmək məhsuldarlığının artacağını düşünürük. Hazırda əmək qanunvericiliyində aylıq əməkhaqqından hesablanan saatlıq tarif maaşı deyilən anlayış var. Hansı ki, müəyyən orta aylıq əməkhaqqının hesablanması zamanı istifadə olunur. Amma bizim təklif etdiyimiz layihədə saatlıq əməkhaqqı tətbiq olunan sahələrdə həmin əməkhaqqının miqdarı aylıq əməkhaqqının əsasında müəyyən edilən saatlıq tarif maaşından daha yüksək müəyyən ediləcək".



❑ **"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi



YENİ MÜSAVAT
N 75 (8685) 2 may 2025

# Namazın ana dilində qılınması yenidən gündəmdə

## İlahiyyatçı: "Əgər bir dinə aid ayində o dinin müqəddəs kitabının mətni dəqiq şəkildə ifadə olunmursa..."

**Son günlər ictimai müzakirələrdə yenidən gündəmə gələn məsələlərdən biri də Azərbaycanda namazın ana dildə qılınmasıdır. Bəzi insanlar hesab edirlər ki, ibadətin mənəvi dərinliyini və Allahla ünsiyyəti daha yaxşı qavramaq üçün namaz öz ana dilində qılınmalıdır. İlk baxışdan məntiqli görünən bu fikir əslində daha geniş və həssas bir məsələdir.**

Dinşünaslara görə, İslam yalnız fərdi inanc deyil, həm də ümmətin birliyini və həmrəyliyini əsas alan bir din kimi ərəb dilini ortaq ibadət dili olaraq qəbul edib. Quranın məhz bu dildə nazil olması milyonlarla müsəlmanın bir səslə, bir dillə Rəbbinə üz tutmasını təmin edən ruhani bir körpüdür.

**İlahiyyatçı, dosent Elvüsal Məmmədov mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb:** "Əvvəla, namaz İslamla əlaqəli məsələdir. İslam məhəllə, şəhər, ölkə deyil, region, ümumdünya dini olmağa iddialıdır və 14 əsrlik tarixi boyu bu iddianı real müstəvidə isbatlamağı bacarıb, cahanşümul dinə çevrilib. VII əsrdən bu günədək İslam eyniadlı coğrafiya, mədəniyyət və tarix yaradıb. İslam mədəniyyəti, hər şeydən əvvəl, dini mədəniyyətdir. Bu mədəniyyətin vahid dini, eyni ibadət sistemi, müştərək ibadət dili olub. Ümumiyyətlə, hansısa mədəniyyət, din ümumdünya hadisəsinə çevrilmək istəyirsə, onun ümumi ərazisi (arealı), ümumi dili, ümumi mahiyyəti və forması olmalıdır. Ümumdünya mədəniyyətinin, ümumdünya dininin öz dili olmalıdır. Tarixən olub, indi də var, gələcəkdə də olacaq. İslam ümumdünya dini olduğu üçün onun vahid ibadət sistemi və bu sistemin öz dili var - ərəb dili!

Deməli, ibadət dilinin vahid olmağı islamın ümumdünya dini olmaq kimi istəyindən, iddiasından irəli gəlir. İslam özünü cahanşümul din kimi aparır, odur ki fərqli dillərdə danışmasına baxmayaraq, insanları birləşdirən müştərək ibadət formaları, vahid ibadət dili təqdim edir. Eyni dildə ibadət etmək müsəlmanlarda eyni dinə, eyni ümmətə mənsubluq şüurunu möhkəmləndirir".

**İlahiyyatçı əlavə edib ki, islam hansısa ölkənin, xalqın dini deyil ki, özünü qəbilə, yaxud milli din kimi aparsın, hər xalqa aid dilləri ibadətdə əsas götürsün:** "İkincisi, namaz İslamda ən ali ibadət aktı olub bu dinin başlıca ibadət ayini hesab olunur. Bu baxımdan, Peyğəmbər namazı "dinin sütunu" adlandırıb. Budaqlar üçün gövdə, vestibül üçün dayaq-sütun nədirsə, İslam üçün namaz da odur. İngilis dilinə bu sözü səhvən "prayer" (dua, xahiş) kimi tərcümə edirlər. Prayer istənilən formada, verbal, yaxud qeyri-verbal icra olunan sitayişi, ibadət aktını bildirir. Amma namaz müəyyən vaxtlarda, müəyyən formada, müəyyən şərtlər daxilində icra olunan ibadət aktıdır. Bu baxımdan namaz konkret vaxtı, forması, dili olan ayindir. Bu məntiqə uyğun olaraq, namaz həmişə ərəb dilində qılınıb, başqa dildə qılınarsa, ayin statusunu itirərək adi duaya, diləyə çevriləcək.



Namazın ayrı-ayrı dillərdə qılınmasına çağırış edənlər onunla duanın fərqini başa düşə bilmir, ya da düşmək istəmirlər. Dinin din olması, fərdə təsir göstərməsi üçün institutlaşmış ibadət formalarına - ayinlərə ehtiyac vardır. Bəli, biz duanı istədiyimiz vaxt, istədiyimiz formada, öz dilimizdə edirik. Amma duanın konkret vaxtı, forması, dili olmadığı üçün iltizam yükləmə xassəsindən uzaqdır. Dua edən şəxslər əsasən spontan formada, "iş düşəndə", dəyişkən müddətə dua edirlər. Konkret forma, sistemlilik, konkret vaxt, say olmadığı üçün spontan dualar Allahla bəndə arasında davamlı, mütəmadi, sistemli, dövri rabitəni təmin edə bilmir. Bədənimizin sistemli, vaxtı-vaxtında qidalanmaya ehtiyacı olduğu kimi ruhumuzun da ibadət reqlamentinə, konkret ibadət formasına (dil, hərəkətlər...) ehtiyacı vardır. Ayinlər, o cümlədən namaz insan ruhunun onu insan oğluna üfürən Yaradıcı ilə sistemli rabitəsini təmin edir.

Nəhayət, namaz oxunan əsas dualarına görə ayələrdən təşkil edilib. Oxuduğumuz mətnin Quran hesab edilməsi üçün o, forma və məzmunca Allahdan gələn sözü ifadə etməlidir. Tərcümə əsla Quran deyildir, tərcümə zamanı tərcüməçinin bütün Quran leksikonunu ideal formada ekvivalentləşdirməsi qeyri-mümkündür. Əgər bir dinə aid ayində o dinin müqəddəs kitabının mətni dəqiq şəkildə ifadə olunmursa, həmin ayinin sakral bütövlüyü pozulur, üstəlik, fərqli tərcümə variantlarının eyni dildə danışan dindarlarda ibadət sözlərinin fərqlənməsi fonunda çaşqınlıq yaratması istisna edilmir.

Sözün qısası, namazın eyni dildə qılınması İslamın cahanşümulluğundan irəli gəlir, institutlaşmış ibadət aktını səciyyələndirir, ilahi kəlamın orijinallığına göstərilən etinanı bildirir, nəhayət, müsəlman ümmətinin birliyini simvolizə edir".

Azərbaycan Respublikasının Medìanın İnkìşafı Agentlìyìnìn malìyyəsì əsasında nəşr olunur. Yazını hazırladı: Afaq MİRAYİQ

# Uşaqsız və subay Papa - adı mayın 7-də bilinəcək

## Vatikandakı seçkilər ən ciddi məxfilik şəraitində və Sikstin kapellasında keçiriləcək

**Yeni Papanın seçilməsi üçün Konklav adlı kardinal assambleya mayın 7-də keçiriləcək. Yeni Papanın seçilməsi prosesi konklav adlanır. Adı "açarla kilidlənmiş" kimi tərcümə olunan söz latıncada "cum clave" deməkdir. Həqiqətən də Seçicilər Kollegiyası seçkinin bütün müddəti üçün sözün əsl mənasında bir otaqda kilidlənirlər. Konklavın ənənələri bir çox dəyişikliklərə məruz qalıb. Xristianlıq dövrünün ilk illərində prosedurun necə həyata keçirildiyi dəqiq bilinmir. Yəqin ki, yepiskoplar (ən yüksək rütbəli ruhanilər) apostollar tərəfindən və xalqın razılığı ilə təyin edilirdilər.**



Tədricən papalıq da xristianlıq kimi güclənir və təkcə mənəvi həyata deyil, həm də siyasətə təsir göstərməyə başlayır. Sonra krallar seçki prosesinə qarışmağa başlayırlar: onlar konklavın və ya müstəqil olaraq təyin edilmiş papaların qərarına təsir göstərirdilər. XI-XII əsrlərdə deçki prosedurunu tənzimləyən İkinci və Üçüncü Lateran Şuraları baş tutur. Nəticədə qərara alınır ki, pontifik dünyəvi hakimiyyətin iştirakı olmadan yalnız kardinallar kollegiyası tərəfindən seçilsin. Bu halda, qərar səs çoxluğu ilə qəbul edilir: qalib səslərin üçdə ikisini almalı olur.

Amma əslində krallar və siyasətçilər səsvermə proseduruna təsir etməkdə davam edirlər və kardinallar da öz maraqlarından çıxış edərək qruplara bölünürlər.

Başqa bir problem də var idi: seçkilər bəzən həftələrlə, hətta aylarla davam edir. Məsələn, 1268-ci ildə İtaliyanın Viterbo şəhərində iyirmi kardinaldan ibarət kollegiya razılığa gələ bilmir. Seçkilər 1006 gün davam edir və Müqəddəs Taxt boş qalır. Nəticədə qəzəbli möminlər, sadəcə, kafedraldakı bütün kardinalları qapılar arxasında saxlayır və kollegiya nəhayət seçim edənə qədər onları buraxmırlar.

1274-cü ildə İkinci Lion Şurası keçirilir. Orada yeni Papa Qriqori X seçkilərin keçirilməsi qaydalarına əlavələr edir. Yeni qaydalara görə, seçkilər təcrid, qapalı otaqda keçirilməli olur, kardinallara xarici dünya ilə əlaqə saxlamaq qadağan edilir. Onlara xüsusi pəncərədən yemək verilir. Əgər səkkiz gün ərzində razılığa gələ bilməsələr, onların rasionu gündə bir yeməyə endirilir. O vaxtdan bəri konklavın qaydaları bir sıra dəyişikliklərə məruz qalır, lakin İkinci Lion Şurasında qəbul edilmiş ümumi qayda bu günə qədər qorunub saxlanılır.

Papanın seçilməsi necə baş verir?

Pontifik ölən kimi "Sede Vakante" adlanan dövr başlayır. Papanın dəfn mərasimi və konklav hazırlıqları kamerlenqo tərəfindən həyata keçirilir. O, ancaq kardinallar arasından təyin oluna bilər. Papanın ölümündən sonra kamerlenqo pontifikin gedişini simvolizə edən möhürlə qızıl üzüyünü qırır. Den Braunun "Mələklər və cinlər" romanında hadisələr yeni papanın seçilməsi ətrafında cərəyan edir. Yazıçı konklav prosedurunu yaxşı təsvir etsə də, orada səhvlər var. Məsələn, romandakı kamerlenqo sadə bir keşişdir, bu isə qadağandır.

Demək olar ki, hər bir katolik kişi papa ola bilər, əsas odur ki, o, uşaqsız və subay olsun. Üstəlik, o, hətta keşiş də olmaya bilər. Amma bu, nəzəri cəhətdən belədir. Praktikada demək olar ki, həmişə kardinallardan yalnız biri papa seçilir. Kardinalları isə yalnız pontifik təyin edə bilər. Namizədin bacarıqlı diplomat olması, ilahiyyat və xristianlığın tarixini mükəmməl bilməsi, bir neçə xarici dildə danışması arzuolunandır.

Papanın seçilməsi ən ciddi məxfilik şəraitində və Sikstin kapellasında keçirilir. Konklav zamanı onlar qapalı otaqda saxlanılır və xarici dünya ilə heç bir əlaqəsi olmur. İstənilən rabitə vasitəsi təslim edilməlidir. Gizli şəkildə məlumat ötürdüyünə görə, din xadimi kilsədən xaric edilə bilər.

Seçim xüsusi səsvermə bülleteninə namizədin adı yazılmaqla gizli səsvermə yolu ilə həyata keçirilir. Səsvermə gündə iki dəfə keçirilir: səhər iki dəfə və axşam iki dəfə. Seçim edilmədikdə, adları olan bülletenlər xüsusi sobada yandırılır. Onlara kimyəvi birləşmə əlavə olunur ki, bu da tüstüyə qara rəng verir. Beləliklə, prosedura əməl edən dindarlar səsvermənin hansı mərhələdə olduğunu bilirlər.

Seçkidə qalib gəlmək üçün namizəd səslərin üçdə ikisini almalıdır. Lakin səsvermənin 30 turu artıq keçibsə və pontifik seçilməyibsə, yeni papa sadə səs çoxluğu ilə təyin edilir. Papa nəhayət seçiləndə bacadan ağ tüstü çıxır. Yeni pontifik reqaliyasını geyinir və Vatikanın Müqəddəs Pyotr meydanında dindarları salamlamaq üçün eyvana çıxır. O da özünə yeni ad seçməlidir. Ən məşhur Papa adı İohann (23 dəfə), ikinci yerdə Qriqori və Benedikt (hər biri 16 dəfə) gəlir.

Kardinallardan hansının müqəddəs taxta iddia edə biləcəyi ilə bağlı müxtəlif adlar beynəlxalq mətbuatda müzakirə olunur. Beynəlxalq mətbuatda dərc olunan məlumatlara görə, hazırda üç əsas namizəd var: kardinallar Pietro Parolin, Matteo Zuppi və Luis Taql.

Parolin mətbuatda Zuppi və Taqldan üç dəfə çox xatırlanır.

❑ "Yenì Müsavat"



# Müəllimlərə 1 il, həkimlərə cəmi 6 ay?

## **Adil Qeybulla:** “Sertifikasiya imtahanı ləğv olunmalıdır”

**Sertifikasiya imtahanından keçə bilməyən tibb işçilərinə 6 ay ərzində maaş veriləcək. Bu “Əhalinin sağlamlığının qorunması haqqında” Qanuna dəyişiklikdən sonra olacaq. Mövcud qanunvericiliyin tələblərinə əsasən sertifikasiya imtahanından keçməyən tibb işçisi yenidən 6 ay ərzində hazırlaşıb imtahan verə bilər. Bu zaman iş yeri saxlanılsa da, tibb işçisinə işə gəlməyə icazə verilmir.**

Bu müddət ərzində onun aylıq əməkhaqqının ödənilməsi mexanizmi ilə bağlı bir sıra ciddi problemlər mövcuddur. Belə ki, yeni təklif olunan dəyişiklikdə bu məsələyə humanist yanaşma ortaya qoyulub və sözügedən 6 aylıq müddətdə işçilərin aylıq vəzifə (tarif) maaşının saxlanılması məqsədilə qanunun 49-1-ci maddəsinin 11-ci hissəsinin 1-ci cümləsinə müvafiq dəyişiklik təklif olunub. Ancaq o da məlumdur ki, digər sahələrdə daha uzun müddətə möhlət verilir. Məsələn, sertifikatlaşdırmadan keçməyən müəllim bir il müddətində iş yeri saxlanılmaqla, təkrar sertifikatlaşdırmada iştirak etmək hüququna malikdir.

Maraqlıdır, niyə həkimlərə 6 ay möhlət verilir?

**Professor, tibbi ekspert Adil Qeybulla “Bakı-Xəbər”ə açıqlamasında qeyd edib ki, sertifikasiya imtahanı ləğv olunmalıdır, buna ehtiyac yoxdur:** “Bu cür imtahanlar yalnız ölkəmizə işləmək üçün gələn müəllim və ya həkimlərə tətbiq edilə bilər. Ali məktəbi bitirib, baza tibb təhsil alıb daha sonra rezidentura, diplom alan həkimlərin hər 5 ildən bir imtahan verməsi biabırçılıqdır. Həkimlər sertifikasiyadan yox, akkreditasiyadan keçməlidir. Akkreditasiya müddəti hər ölkədə fərqli olur. Dünyanın hər yerində akkreditasiya sistemi var. Yəni həkimlər baza və rezidentura təhsili aldıqdan sonra onlara konkret bir sahə üzrə fəaliyyət göstərmək üçün lisenziya verilir. Bu lisenziyanın müddəti 5, yaxud 7 il ola bilər. Həmin müddət bitdikdən sonra təkrar akkreditaisya aparılır, şəxsin həmin müddət ərzindəki fəaliyyəti, nə qədər konfrans və təcrübə mübadiləsində olduğu araşdırılır. Ondan sonra ona yeni dövr üçün lisenziya verilir. Bir şəxs öz ixtisasını dəyişmək istəyirsə, təkrar rezidentura keçməlidir. Prinsip və qayda budur. Buna keçmək lazımdır, sertifikasiya imtahanı formaldır, burada kimin nə marağı varsa, əl çəkmək istəmirlər”.

# Ölkədə ən çox tələb olunan beş peşə

## Mühasib, kredit mütəxəssisi, satış planlanması…

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya əmək bazarının cari vəziyyətini qiymətləndirmək məqsədilə iş elanlarının genişmiqyaslı kəmiyyət təhlilini aparıb.**

Bu barədə nazirlikdən məlumat verilib.

Bildirilib ki, son iki il əhatə edən 25 min 678 vakansiya nəzərdən keçirilib və ən çox tələb olunan beş prioritet peşə istiqaməti müəyyən edilib: satış təmsilçisi, mühasib, kredit mütəxəssisi, işə qəbul üzrə mütəxəssis, satış planlanması.

Təhlillər göstərir ki, bu peşələr üzrə işçi qüvvəsinə daha çox ehtiyacın olması əmək bazarının genişlənməsi və struktur dəyişiklikləri ilə sıx bağlıdır.

Vakansiyaların hər dördündən biri topdan və pərakəndə ticarət sahəsində fəaliyyət göstərən müəssisələrə aiddir.

Bank sektoru isə 9,2 faizlik payla vakansiya sayına görə ilk onluğa liderlik edir. Bu sektor həm yeni iş yerlərinin yaradılması, həm də işçi dəyişkənliyinin yüksək olması ilə seçilir.

Araşdırma həmçinin göstərir ki, iş elanlarının 76,2 faizində iş təcrübəsi tələb olunur, minimum iş təcrübəsi tələbi isə 1-2 il arasında dəyişir. Vakansiyaların 67,2 faizində ali təhsilin əsasən bakalavr səviyyəsi tələb olunur.

Məvacib göstəricilərinə gəldikdə, qeyd edilən 25 min 678 vakansiyadan yalnız 8,4 minə yaxın vakansiyada əməkhaqqı qeyd edilib. Onlarda təklif olunan məvacib 400-7000 manat arasında dəyişir.

**Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev** son açıqlamasında bildirib ki, əmək bazarı ilə bağlı görülən tədbirlər nəticəsində əmək müqavilələrinin sayı 556 min və ya 42,4% artıb və bu artımın 90%-i özəl sektorun payına düşüb. “Son 6 ildə əməkhaqqı fondu 2,9 dəfə, o cümlədən qeyri-dövlət sektoru üzrə 3,2 dəfəyədək artıb”, - deyə nazir vurğulayıb.



**İqtisadiyyat nazirinin müavini Elnur Əliyev** isə bir neçə gün öncə “Rəqəmsallaşma və süni intellektin iş yerlərinə təsiri” mövzusunda konfransda deyib ki, hər il Davos Forumu ərəfəsində Dünya İqtisadi Forumu tərəfindən nəşr edilən “Gələcəyin Peşələri” (“Future of Jobs”) adlı 2025-ci il üzrə hesabatına əsasən, texnologiyaların mənimsənilməsi ilə növbəti 5 ildə iş mühitində bacarıqların 39%-nin transformasiyaya məruz qalacağı proqnozlaşdırılır. O bildirib ki, avtomatlaşdırma və digər texnoloji tərəqqi nəticəsində növbəti 5 ildə qlobal miqyasda 92 milyon iş yerinin tənəzzülə məruz qalacağı, əvəzində daha çox-170 milyon yeni iş yerinin yaranacağı təxmin edilir: “Belə bir şəraitdə əsas çağırış yalnız texnologiyanı mənimsəmək deyil, onunla birlikdə insan kapitalını, bacarıqları və əmək bazarını da paralel şəkildə transformasiya etməkdir. Əks halda, rəqəmsal bərabərsizlik daha da dərinləşə və texnologiyadan əldə olunan faydalar cəmiyyətin yalnız məhdud hissəsinə çata bilər”.

**Sosial Tədqiqatlar Mərkəzinin İcraçı direktoru, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının rəhbəri Sahib Məmmədov “Yeni Müsavat” a şərhində bildirdi ki, sözügedən araşdırma rəsmi vakansiyalara əsasən aparılıb. S.Məmmədov qeydə alınmayan vakansiyaların sayının çox olduğuna diqqət çəkdi:** “Azərbaycanda qeyri-rəsmi əmək bazarının öz tələbatı var. Buna görə hesab edirəm ki, ən çox tələb olunan beş prioritet peşə istiqaməti yalnız rəsmi statistikanı əhatə edir. Amma bu, dövri olaraq dəyişir. Regionların vəziyyətini nəzərə alsaq, məsələyə fərqli yanaşmaq olar. Paytaxtda prioritet hesab olunan peşələrlə, digər şəhərlərdə, yaxud ucqar ərazilərdə prioritet hesab olunan peşələr fərqli ola bilər. Dəyərləndirmə zamanı bu amili də nəzərə almaq yerinə düşər. Hesab edirəm ki, araşdırma zamanı regionlardakı cari vəziyyəti də öyrənmək lazımdır. Həmçinin hesab edirəm ki, rəsmi vakansiyaların tətbiqi yetərli deyil, daha çox alətin tətbiq olunması məqsədəuyğun olar. Qeyri-formal əmək bazarının tələbini öyrənmək üçün sorğular keçirilməli, tədqiqat metodologiyası olmalıdır. Yalnız bundan sonra real əmək bazarının vəziyyətini aydın müəyyən etmək olar”.

❑ Nigar HƏSƏNLİ, “Yeni Müsavat”

# Dərman qıtlaşır, həm də bahalaşır



**Son illərdə Azərbaycanda ucuz dərman vasitələrinin qiymətində kəskin artım müşahidə olunur. Qiyməti ucuz, münasib olan dərmanlar bahalaşmaqla yanaşı, satışdan da yığışdırılır.**

Məsələ ilə bağlı Analitik Ekspertiza Mərkəzindən (AEM) “Bakı-Xəbər”ə bildirilib ki, Azərbaycanda dövlət qeydiyyatına alınmış bütün dərman vasitələrinin qiyməti Tarif Şurası tərəfindən tənzimlənir: “Eyni zamanda dərman istehsalı ilə məşğul olmaq azad sahibkarlıq fəaliyyətidir və hər bir sahibkar istehsal edəcəyi məhsulların seçimində sərbəstdir. Ölkədə bir neçə özəl dərman istehsalçısı fəaliyyət göstərir və onların fəaliyyəti İqtisadiyyat Nazirliyi tərəfindən verilən lisenziya və Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin rəyi əsasında həyata keçirilir”.

**Həkim ekspert Pərvanə Mustafayeva bildirib ki, dərman idxalında monopoliya olmamalıdır. Çünki o dərmanları almağa pul lazımdır:** “İmmun sistemi də zəifdir, ərzağın da çoxu xaricdən idxal edilir və əksəriyyət də keyfiyyətsizdir. Nəticədə insanlar həkimlərə müraciət edirlər. Əhalinin vəziyyətini nəzərə almaq lazımdır. Son zamanlar kömür dərmanının apteklərdən yığışdırılması ilə bağlı məlumatlar var. Bu dərman ucuz, əlçatan olmaqla yanaşı, bədəndən toksinləri və kimyəvi maddələri çıxarmaq üçün istifadə edilir. Bu tip preparatların çoxu Rusiya və Ukrayna istehsalıdır. Ümumiyyətlə, dediyim ölkələrin istehsalı olan dərmanların satışında problem yaşanır. Regionda baş verən müharibə səbəbilə idxalda çətinliklər yaşanır, bu da qiymət artımı və qıtlığa səbəb olur”.

# Kənd təsərrüfatı məhsulları marketlərdə ikiqat bahadır?

## Deputatın izahı: “Sahibkarlar bu xərcləri qiymətin üstünə əlavə edirlər deyə...”



**Son vaxtlar Azərbaycanda əsas kənd təsərrüfatı məhsulları olan kartof və soğanın qiymətindəki bahalaşma müzakirə gündəmindən düşmür. Artıq bir neçə aydır ki, kartof qiymətləri 1,5-2 manat, soğan isə 1-1,6 manat arasında dəyişir. Həmişə faraş kartofun bazara çıxması ilə aprel ayının ikinci yarısından ucuzlaşma başlansa da, bu il qiymətlərdə düşmə müşahidə olunmur.**

Maraqlıdır ki, belə bahalığın müzakirəsi zamanı diqqət yetirilən məsələlərdən biri marketlərdə kənd təsərrüfatı məhsullarının bazarlardan xeyli baha qiymətə satılmasıdır. Bildirilir ki, eyni məhsulun bazar qiyməti ilə market qiyməti arasında 50-60 qəpiyə qədər fərq olur. Məsələ ilə bağlı İqtisadiyyat.az-a açıqlama verən **Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev** bunun səbəblərinə toxunub. Onun sözlərinə görə, marketlərdə soğanın, kartofun və digər kənd təsərrüfatı məhsullarının qiymətinin artması bir tərəfdən təbii görünür: “Çünki marketlər məhsula əlavə qiymətlər qoyurlar. Ancaq bazarda isə kartofun, soğanın və digər məhsulların qiyməti aşağıdır”.

**Komitə sədri söyləyib ki, əhali alış-veriş üçün daha çox böyük marketlərə üz tutur. O, buna səbəb kimi isə marketlərin vizual olaraq görünüşünün və səliqə-səhmanının müştərilər üçün daha cəlbedici olmasını göstərib:** “Bu səbəbdən sahibkarı da məhsulu niyə baha atdığına görə qınamaq olmur. Hər kəs bilir ki, ölkəmizdə yarmarkalar və digər satış məntəqələri mövcuddur. Fərdi insanlar rayonlardan gətirdiyi kənd təsərrüfatı məhsullarını burada satırlar və doğrusu, mən də burada qiymətlərin yarıbayarı aşağı olduğuna fikir vermişəm. Dəfələrlə müşahidə etmişəm ki, əgər marketdə doğrudan da qiymət 1.50-2 manatdırsa, orada 0.80-1 manatdır”.

**T.Rzayev buna görə də əhalinin öz büdcəsini məhz özünün müəyyən qaydada hesablamalı olduğunun zəruriliyini qeyd edib:** “Hamı gileylənir ki, filan məhsul niyə marketdə bahadır. Yenə deyirəm, marketə çəkilən xərclər var: buraya onun gətirilməsini, saxlanılmasını və digər məsələləri göstərmək olar. Sahibkarlar bu xərcləri qiymətin üstünə əlavə edirlər deyə, bu da müəyyən qaydada bahalaşmaya səbəb olur”.

**Komitə sədrinin sözlərinə görə, digər səbəb isə müəyyən işbazların bazarda qiymətin artırılması üçün təşəbbüs göstərmələridir:** “Yəni məhsulu çox ucuz qiymətə alırlar və baha qiymətə satırlar. Ancaq yenə deyirəm, insanlar da öz büdcələrinin qeydinə qalmalı və hesablamalar aparmalıdırlar. Hara sərfəlidirsə, oradan almalıdırlar. Bəzən bir km və ya 500 metr yol qət etməmək üçün yaxında təmtəraqlı marketdən alış-verişə üstünlük verirlər. Belə olan halda sahibkarlar da tələbata uyğun olaraq qiymətləri artırırlar”.

Qeyd edək ki, komitə sədrinin dediklərinə rəğmən, eyni keyfiyyətdə olan məhsullar üzrə bir çox hallarda bazar və yarmarkalardakı qiymətlər market qiymətlərindən demək olar ki, fərqlənmir. İndiki halda kartof və soğanın qiymətləri hər iki satış məntəqəsində demək olar ki, eynidir. Bahalaşmanın əsas səbəbinə gəldikdə, burada əsas rol ölkənin bütün satış şəbəkələrindəki inhisarçılığa və məhsul istehsalındakı azalmaya məxsusdur. Heç kimə sirr deyil ki, Azərbaycanın ən böyük satış bazarı olan Bakı şəhərində piştaxtalara gedən yollar müəyyən qrupların əlindədir. Kəndlinin sahədə 15-20 qəpiyə satdığı soğanı Bakıda piştaxtaya 60 qəpiyə çıxaran məhz həmin inhisarçı qruplardır.

Konkret kartofla bağlı məsələyə gəlincə, rəsmi statistika Azərbaycanın kartofla özünü tam təmin edə bilmədiyini göstərir. 2008-2009-cu illərdə tələbatın 104 faizinə çatan bu göstərici 2023-cü ildə 89,9 faiz təşkil edib. Maraqlıdır ki, ölkədə istehsal olunan kartofun rəsmi statistikanın qeydə aldığı həcmi mövcud tələbatdan xeyli yüksək olsa da, nədənsə özünütəminat səviyyəsində bu, əksini tapmır. Belə ki, rəsmi ərzaq balansında ölkə əhalisinin illik kartof istehlakı 850-900 min ton civarında göstərilir. Daha 7,5-8 min ton qida məhsullarının istehsalına sərf edilir. Mal-qara və quş yemi üçün kartof istehlakı sürətlə artaraq 2023-cü ildə 63,8 min tona çatıb. İllik itkilər 65 min ton ətrafında dəyişir. Yəni faktiki istehlak itkilərlə birlikdə 1 milyon tondan cüzi yuxarıdır. Ölkədə kartof istehsalı isə son illərdə 1 milyon tondan aşağı olmayıb. Belə ki, son illərdə ölkədə kartof əkini sahələrində azalma olsa da, rəsmi statistikada ümumi istehsalın artması müşahidə edilir: 2019-cu ildə 56 921 hektar sahədən 1 milyon 4172 ton, 2021-ci ildə 56 104 hektar sahədən 1 milyon 61 958 ton, 2022-ci ildə 54,7 min hektar sahədən 1 milyon 74,3 min ton kartof yığılıb. 2023-cü ildə son illərdə ilk dəfə olaraq kartof istehsalında azalma qeydə alınıb: 1010,5 min ton və ya 2022-ci ilə nisbətən 5,9 faiz az kartof istehsal olunub. Bu azalma 2024-cü ildə də davam edib - cəmi 927,4 min ton kartof yığılıb. Beləliklə də kartof istehsalı 2023-cü illə müqayisədə 8,2 faiz azalıb.

2024-cü ildə ölkədə kartof əkinlərinin sahəsi əvvəlki ildəki 49,4 min hektardan 46,7 min hektara qədər azalıb. Proses bu il də davam edir - birinci rübdə kartof əkinləri əvvəlki ilin eyni dövründəki 27 141,3 hektardan 26 110,1 hektara(3,8 faiz) qədər azalıb.

Bir məqama diqqət yetirmək lazımdır ki, ölkədə istehsal olunan kartofun 350-400 min tona yaxınını istilikxanalarda səpilən faraş kartof təşkil edir. Əsasən Şəmkir, Cəlilabad, Tovuz rayonunda yetişdirilən belə kartof saxlanma üçün yararlı olmayıb, qısa müddətdə istehlak üçündür. Xaricə ixrac olunan da məhz istilikxanalarda yetişdirilən belə kartofdur. Azərbaycanda ildə 70-80 min ton arası faraş kartof ixracı qeydə alınır. 2022-ci ildə kartof ixracı 78 301,42 ton (35 milyon 121,66 min dollar), idxalı isə 159 725,97 ton (41 milyon 788,31 min dollar) təşkil edib. 2023-cü ildə ixrac 30 milyon 930,25 min dollar dəyərlə 71 192,26 ton, idxal isə 44 milyon 213,88 min dollar dəyərlə 162 242,61 ton olub. 2024-cü ildə ixracda kəskin azalma qeydə alınıb: 48,3 min ton. Bu ixracdan əldə olunan gəlir isə 20,5 milyon dollara bərabər olub. 2025-ci ilin yanvar-mart aylarında isə Azərbaycandan 1 009 ton kartof ixrac edilib. Bu göstərici ötən ilin eyni dövründə 1 467 ton təşkil etmişdi. Beləliklə, ixrac olunan kartof çəki baxımından 458 ton və ya 31,2 faiz azalıb. Kartof ixracından əldə edilən gəlir də azalaraq 328 min 850 dollar olub. Müqayisə üçün, ötən ilin eyni dövründə bu rəqəm 458 min 530 dollar idi. Bu da illik müqayisədə 129 min 680 dollar və ya 28,3 faiz gəlir itkisi deməkdir.

Ölkə üzrə faraş kartof istehsalını ümumi istehsal həcmindən çıxdıqda, yazlıq əkinlərdən kartof istehsalı ilboyu daxili tələbatı təmin etmək üçün yetərli olmur. Üstəlik, ölkəmizdə kartof saxlanması üçün soyuducu anbar ehtiyacları ümumilikdə 300 min tona yaxın qiymətləndirilir. Son illərdə soyuducu anbarların tikintisi dövlət tərəfindən subsidiyalaşdırılsa da, kartof anbarları tikməyə həvəsli sahibkarlar tapılmır. Bunun əsas səbəbi iri istehsalçıların istilikxana kartofuna üstünlük verməsidir. Belə ki, faraş kartof həm əsas ixrac bazarı olan Rusiyada, həm də Azərbaycanın özündə əlverişli məqamda - köhnə məhsulun tükənməyə başladığı aprel-iyun aylarında yetişir. Bu mərhələdə kartofu ixrac etmək, eləcə də daxili bazarda baha qiymətə satmaq mümkündür. Açıq sahələrdə səpilən kartof isə bütün Azərbaycanda təxminən eyni vaxtda - iyun-iyul aylarında yığılır, bazarda bolluq yaranır və qiymət ucuzlaşır. Açıq sahələrdə kartof istehsalında ağırlıq fərdi təsərrüfatlardadır - rayonlarda əhali həyətyanı sahələrində, kiçik ölçülü pay torpaqlarında yetişdirir. Onların əldə etdikləri 5-10 ton məhsulu baha qiymətə anbarlarda saxlamaq imkanı olmadığına görə maksimum noyabra qədər hamısını satmağa çalışırlar. Anbarlarda yalnız iri istehsalçıların məhsul saxlamaq imkanı olur. Onlar da məhsula istədikləri qiyməti qoyurlar.

Ötən il Azərbaycan xaricdən 39 milyon 75,11 min dollar dəyərində 142 min 897,38 ton ərzaqlıq kartof idxal edib. Bu isə idxalın 20 min tona yaxın azalması deməkdir. Ötən il kartofun 66436,09 tonu İrandan, 33131,2 tonu Rusiyadan, 23939,3 tonu Gürcüstandan, 10399,22 tonu Türkiyədən, 8846,64 tonu Belarusdan, idxal olunub. Az miqdarda kartofu hətta Qırğızıstan və Niderlanddan da almışıq.

Rəsmi statistikanın açıq bazasına əsasən 2025-ci ilin yanvar-fevralında Azərbaycanın xaricdən kartof idxalı 11 milyon 615,46 min dollar dəyərlə 39 218,08 tona bərabər olub. Ötən ilin eyni dövründə idxalın 40225,77 ton təşkil etdiyini nəzərə alsaq, bu il həcmin 2,5 faiz azaldığını görərik. Ötən il kartofun əsas hissəsi Rusiya, Belarus və İrandan alınmışdısa, bu il üstünlük Türkiyə və Gürcüstanda, qismən də İranda olub. Bunun əsas səbəbi həm Belarusda, həm də Rusiyada kartof ehtiyatlarının azalması fonunda birincidə ixraca məhdudiyyətin qoyulması, ikincidə isə qiymət konyukturunun əlverşli olmamasıdır.

Kartof istehsalı ilə yanaşı idxalının da azalması ölkədə qiymət bahalaşmasının səbəblərindən birinə də aydınlıq gətirir. Üstəlik, bu il ixrac birbaşa sərhədimiz olan Rusiya və İrandan daha çox Türkiyədən gətirilir ki, bu da nəqliyyat xərclərində artıma səbəb olur.

❑ Dünya SAKİT,
“Yeni Müsavat”

YENİ MÜSAVAT
Son səhifə
N 75 (8685) 2 may 2025

# Bu otaq ətirləri zəhər saçırmış - satışdan çıxarılır



Bu otaq ətirləri zəhər saçırmış. Türkiyənin Ticarət Nazirliyi "L'actone" markasının iki otaq qoxusunun zəhərli olduğunu açıqlayıb. Nazirlik "L'actone" markasının "Sweet Sugar" və "Melon" adlı otaq qoxularının kimyəvi və sağlamlıq riski daşıdığını bildirib. Nazirlik bu məhsulların satışını qadağan edib və bazardan geri çağırılmasına qərar verib. Səbəb "L'actone" markasının "Sweet Sugar" və "Melon" adlı otaq qoxularının etiket məlumatlarının əksik olması və təhlükə işarələrinin olmamasıdır. Nazirlik bu məhsulların kimyəvi və sağlamlıq riski daşıdığını bildirərək bu səbəblərlə onların satışını qadağan edib və bazardan geri çağırılmasına qərar verib.

## Köpəkbalıqları lal hesab edilirdilər, lakin gözlənilmədən "danışmağa" başladılar



Yeni Zellandiyada aparılan tədqiqat zamanı alimlər ilk dəfə köpəkbalıqlarının səs çıxardıqlarını aşkarlayıblar. Riff köpəkbalıqları ("Mustelus lenticulatus") su altında toxunulduqda aydın və təkrarlanan "çıqqıltılar" çıxarırlar. Alimlər bu səslərin qorxu və ya müdafiə refleksi ilə bağlı ola biləcəyini bildirirlər.

Tədqiqatın müəllifi Karolin Niderin sözlərinə görə, bu, köpəkbalıqlarında ilk dəfə qeydə alınmış aktiv səsçıxarma halıdır. Uzun illər boyu onların lal olduğu düşünülürdü, çünki onların səs yaratmaq üçün üzgəcləri və ya hava kisəcikləri yoxdur. Alimlər bu səslərin köpəkbalıqların dişlərindən çıxa biləcəyini düşünürlər. Bu canlıların dişləri bərk qabıqlı ovlan qırmaq üçün uyğundur və "çənə qapanarkən" çıxan səslər təxminən 155 desibellik - yəni ov tüfəngi səsi qədər güclü ola bilər.

Araşdırma göstərir ki, bu səslər gənc köpəkbalıqları üçün yırtıcılardan yayınmağa da bir vasitə ola bilər. Alimlər səsin təsadüfi, yoxsa məqsədli davranış olduğunu hələ tam bilmirlər, lakin bu kəşf onlar haqqında yüzillik anlayışları dəyişəcək.

## 3 uşaq atası su içməkdən öldü



3 uşaq atası çoxlu su içdiyinə görə vəfat edib. Milli.Az xarici mətbuata istinadla xəbər verir ki, hadisə İrlandiyanın Dublin şəhərində baş verib. İrlandiyanın Dublin şəhərində üç uşaq atası Şon O'Donnell çoxlu su içdikdən sonra vəfat edib. Məhkəmədə açıqlanıb ki, 59 yaşlı O'Donnell xəstəxanada adi bir prosedurdan sonra bol su içməsi tövsiyə edildikdən az sonra "su zəhərlənməsi"ndən həyatını itirib. Tibbi dildə bu vəziyyət hiponatremiya adlanır və eyni xəstəlik Brus Linin də ölüm səbəbi kimi göstərilir.

## ABŞ sakini 40 illik uğursuzluqdan sonra lotereyada milyonlar uddu



ABŞ-da 60 yaşlı kişi 40 illik uğursuzluqdan sonra lotereyada 6 milyon dollar udub. Məlumata görə, Miçiqan ştatının sakini Sterlinq-Xaytsdakı ərzaq mağazasından növbəti dəfə lotereya bileti alıb və bu dəfə uğur onun üzünə gülüb. Şanslı kişi etiraf edib ki, 40 ildən artıqdır lotereya oynayır, lakin heç vaxt böyük məbləğdə pul qazanmayıb. "Mən biletdəki qoruyucu təbəqəni pozanda və 6 milyon dollar zənginləşdiyimi görəndə az qala huşumu itirəcəkdim! Gördüklərimə əmin olmaq üçün lotereya tətbiqində hər şeyi yenidən yoxlamalı oldum", - deyə o qeyd edib. Kişi bildirib ki, qazandığı pulun bir hissəsini səyahətə xərcləyəcək, qalanını isə əmanət hesabına qoyacaq.

## Səhərlər bu içkini içmək ürəyi qoruyur, ömrü uzadır

Səhərlər içilən qəhvənin sağlamlığa əhəmiyyətli faydaları olduğu ortaya çıxıb.

Tanınmış kardioloq Dr. Aurelio Rojasın sözlərinə görə, səhər saatlarında qəbul edilən qəhvə həm ürək sağlamlığını qoruyur, həm də uzunömürlülüyə töhfə verir.

Səhərlər qəhvə içmək infarkt riskini azalda və vaxtından əvvəl ölüm ehtimalını xeyli dərəcədə aşağı sala bilər. Lakin bu faydanın yalnız səhər saatlarında qəhvə içənlər üçün keçərli olduğu vurğulanıb. Günorta saatlarından sonra qəbul edilən kofein isə bədənin təbii bioloji ritmini poza və stress səviyyəsini artıraraq hormon balansına mənfi təsir edə bilər. Qəhvə tərkibində B2, B5 vitaminləri, kalium və maqnezium kimi həyati mineralları daşıyır. Bu maddələr:

Qan təzyiqinin tənzimlənməsində, qan şəkərinin balanslaşdırılmasında, ürək və damar sağlamlığının qorunmasında mühüm rol oynayır. Maqnezium çatışmazlığının infarkt və insult riskini artırdığı elmi olaraq sübuta yetirilib. Eyni zamanda qara və ya yaşıl çay içənlərin də yaşlılıqda daha yaxşı sağlamlıq vəziyyətində olduqları məlum olub.

## Bunları bilirsinizmi?

* Pələnglərin ön dişləri zədələnərsə və ya itərsə, ovlaya bilmədikləri üçün aclıqdan ölə bilər.
* Atlantik qızılbalığının qoxu hissi itlərinkindən təxminən 1000 dəfə yaxşıdır.
* Qrizli ayılar boulinq topunu asanlıqla parçalaya bilər.
* Əqrəblər maddələr mübadiləsini yavaşladaraq heç bir qidaya və suya ehtiyac duymadan bir il yaşaya bilirlər.
* Böyük ağ köpəkbalığı heç bir şey yemədən 3 ay yaşaya bilir.
* Bir araşdırmaya görə, quşların bir-birinə çırpılmamasının səbəbi həmişə sağa dönmələridir.
* Növbəti 15 ildə günəş və külək enerjisi investisiyalarına üstünlük verilərsə, 2030-cu ilə qədər bərpa olunan enerjinin ümumi payı 47%-ə çata bilər. Başqa sözlə, biz elektrik enerjisinə olan tələbatımızın demək olar ki, yarısını bərpa olunan mənbələrdən ödəyə bilərik.
* Günəş və külək sərmayələrinə fokuslanaraq təbii qaz və kömür idxalımızı azaltmaqla 2030-cu ilə qədər 18 milyard dollar qənaət edə bilərik.
* Günəş enerjisi istehsal olunan enerji əsasında kömür və təbii qazdan 8 dəfə, nüvə enerjisindən isə 7 dəfə çox məşğulluq yaratmaq potensialına malikdir.
* Bütün dünyada bərpa olunan enerjiyə investisiyalar artır. 2015-ci ildə bu rəqəm 286 milyard dollara çatıb.

## Planetin ən yaşlı insanı 116 yaşında vəfat edib



Planetin ən yaşlı insanı, braziliyalı rahibə İna Kanabarru Lukas 116 yaşında vəfat edib.

Bu barədə "Agency Franse Presse" Braziliyanın Portu-Aleqri şəhərinin Karmelit Bacıları Konqreqasiyasının bəyanatına istinadən məlumat yayıb. "Planetin ən yaşlı insanı, braziliyalı rahibə İna Kanabarro Lukas çərşənbə günü 116 yaşında vəfat edib", - agentlik onun Portu Aleqri şəhərində yaşadığı Karmelit Bacılar İcmasının bəyanatına istinadən qeyd edir.

Agentlik xatırladıb ki, Kanabarru 1908-ci il iyunun 8-də anadan olub. O, 2024-cü ilin dekabrında 116 il yaşayan Yaponiya sakini Tomiko İtookinin ölümündən sonra dünyanın ən yaşlı insanı hesab edilib.

## Həkimlər xərçəng əlamətlərini infeksiya ilə səhv saldı

Britaniyada həkimlər kişidə sidik kisəsi xərçəngini infeksiya ilə səhv salıblar, ona görə də onu antibiotiklərlə müalicə ediblər. "Medicina" xəbər verir ki, kişi sidiyə çıxarkən narahatlıq hiss etməyə başlayandan sonra həkimə müraciət edib. Həkimlər 50 yaşlı britaniyalının sidik yollarının infeksiyası olduğunu güman edib və ona antibiotiklər yazıblar. O, özü müalicəni məşhur xalq müalicəsi zoğal suyu ilə tamamladı.

Əvvəlcə xəstənin bütün simptomları yox oldu, lakin bir neçə aydan sonra eyni intensivliklə geri döndülər və təyin olunan terapiya artıq təsir göstərmədi. Əlavə müayinələrdən sonra həkimlər onun sidik kisəsində bədxassəli şiş aşkar ediblər.

O vaxta qədər xərçəng artıq dördüncü mərhələdə idi və limfa düyünlərinə metastaz vermişdi, ona görə də həkimlər xəstəliyin sağalmaz olduğunu və britaniyalının ömrünün iki ildən çox olmadığını bildirdilər.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Lisenziya N: B 114
SAYI: 1.500
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.